# AŞIQLARIMIZIN
# DİNİ, MƏNƏVİ ŞEİRLƏRİ

*Ədəbi toplu*



Tbilisi 2021

***© Gürcüstan Müsəlmanları İdarəsi***

Layihənin rəhbəri:
**Hacı Ramin İGIDOV**

Tərtib edən:
**Prof. Mahmud KAMALOĞLU**

Redaktor:
**Prof. Şürəddin MƏMMƏDLI**

Rəyçilər:
**Hacı Eyvaz MƏRDANOV**
**Hacı Rizvan İSMAYILOV**

Kömpüter tərtibatçısı:
**Bahar MƏMMƏDOVA**

***Kitabda Gürcüstanın müxtəlif bölgələrindən aşıqlarımızın dini, mənəvi mövzularda qələmə aldıqları şeirlər yer almışdır.***

***Tbilisi 2021***

# Ön söz əvəzi

Aşıq sənətinin çox qədim və zəngin bir tarixinin olduğu hamıya yaxşı bəllidir. Bu əbədiyaşar sənət xalqımızın mədəniyyəti, incəsənəti, eləcə də ədəbiyyatının zənginləşməsi, təbliği və inkişafında çox mühüm rola malik olduğu da danılmaz bir faktdır. Ta qədim zamanlardan üzü bəri bu zümrəyə aid olan sənətkarların yaratdıqları ədəbi nümunələr çox təəssüflər olsun ki, şifahi şəkildə ağızdan-ağıza keçən zaman onların çox hissəsi itib-batdığına görə zəmanəmizə az bir qismi gəlib çatmışdır. Bu ədəbi nümunələrin itib-batmasının əsas və başlıca səbəbi həmin dövrlərdə yaşayan əhalinin çox böyük hissəsinin yazı-pozu bilmə-məsindən irəli gəlmişdir.

Bütün bunlara rəğmən orta yüzilliklərdən başlayaraq bu sənətin zirvəsində dayanan nəhəng korifey aşıqlar – Dirili Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Xəstə Hasan, Aşıq Veysəl, Dədə Ələsgər, Aşıq Şenlik və s. onlarca digər ustadların hər biri bu sənətdə xalqımıza çox böyük ədəbi miras qoyub getmişlər. Bu cür böyük sənətkarların yaratdıqları istər qoşquları olsun, istərsə də dastanları, günü bu gün də xalq tərəfin-dən çox yüksək səviyyədə dəyərləndirilməkdə və sevilməkdədir.

Digər klassik şairlərimizdən fərqli olaraq bu zümrəyə aid olan sənətkarların yaradıcılıqlarında bir məqam daha çox diqqət çəkir. Belə ki, onların yaradıcılıqlarına nəzər salıb, diqqət yetirəndə görürük ki, bu ustad sənətkarlar yazdıqlarının hamısında dini mövzulu əsərlərinin sayı həm çoxdur, həm də həmişə ön planda durur. Bu da ondan irəli gəlmişdir ki, müsəlmanlığın xalqımız tərəfindən qəbul edildiyi ilk dönəmlərdən başlayaraq ona böyük sayğı göstərilmiş və zaman ötdükcə dinimizə inancımız daha da möhkəmlənməyə doğru sürətlənmişdir. Əslində bir az da əvvələ getsək görürük ki, aşıqlıq öz başlanğıcını ozan-dan almışdır "İlkin ibtidai çağlarda ozanlar da ruhani, təbib, musiqiçi, tayfa ağsaqqalı vəzifələrini yerinə yetirmişlər...". "...Dədə Qorqud ozanların, habelə baxşıların piri, ustadı, yol göstəricisi və hami-sidir...

"...Dədə Qorqud adi ozan deyil, ilahi aləmlə əlaqəli bir göstəricisi də islam öncəsində ozanların ruhani vəzifə icraçılığı ilə məşğul olmasıdır. Belə ki, dəfn-yas mərasimlərində ozanlar qopuzda niskilli havalar çalaraq dünyasını dəyişənlərin müsbət keyfiyyətlərindən söz açardılar"[1].

Müsəlmanlığın gücləndiyi orta yüzilliklərdə ozan sənətini aşıq sənəti əvəz etməyə başlayır. O dönəmlərdə "haqq aşığı", fəlsəfi-urfani obrazları ortaya çıxır. Yəni ozan-aşıq keçidi başa çatdıqdan sonra "haqq aşığı", "aşıq" adları daha da möhkəmlənməyə başlayır.

Klassik islam mədəniyyəti orta əsrlərdən etibarən bir çox sahələrdə olduğu kimi incəsənətimizə - o cümlədən aşıq sənətinə də çox güclü təsir göstərməyə başlayır. Belə ki, islam ideologiyası ilə yetişən saz-söz adamları da tanrı aşiqi kimi görünməyə başladılar. Buradan da təkkə və təsavvüf şairlərinə "aşıq" deyilməyə başladı. Getdikcə bu cür şairlər yavaş-yavaş saz çalıb, söz qoşduqlarına görə onlara da aşıq dedilər.

Zaman keçdikcə bütün türk xalqları içərisində aşıqlıq gələnəyi bu ruhda çox güclü bir şəkildə və çox da sürətlə inkişaf etməyə başladı. Onların arasında ünlü ustadlar yetişdi.

Uzun əsrlər boyu daima davam və inkişaf edən aşıqlıq sənətinə digər türk xalqları kimi Azərbaycan xalqı da öz töhfələrini verdi. Onların içərisində də çox güclü saz-söz sərrafları ortaya çıxdı.

Ancaq təəssüflər olsun ki, sovetlər birliyi qurulandan sonra aşıqlıq gələnəyinin bu sahədəki sürətli inkişafın qarşısı alınaraq zəiflədilməyə başladı.

Ötən yüzilliyin əvvəllərinə – Sovetlər birliyi qurulanadək yaşayıb-yaratmış bütün saz-söz əhli – aşıq-şairlərin əksəriyyəti öz sələflərinin qoyduqları ənənələrə sadiq qalaraq dini mövzuda çoxlu qoşqular yazmışlar. Ancaq Sovetlər dönəminin mövcud olduğu uzun illər ərzində kommunist rejimi tərəfindən din hər yerdə yasaqlandı. Dindarlar isə

---

[1] Məhərrəm Qasımlı. Ozan-aşıq sənəti. Bakı 2011.səh.25-26.

kütləvi şəkildə həbs və sürgün edildi, ibadətgahlar bağlanaraq anbarlara çevrildi. Sənət adamlarına da dini mövzuda qoşqular yazmaq, dini təbliğ edən mahnılar oxumaq təbii ki, tam qadağan olundu. Onlara ancaq kommunizm quruculuğunu tərənnüm edən, fəhlə-kəndliləri tərifləyən şeirlər yazmağa icazə verildi. Yəni nə bir şair, nə bir aşıq dinlə bağlı heç nə yazmamalı, heç nə oxumamalı idi. Əks təqdirdə onların aiqbətini nələr gözlədiyi o dövrdə yaşayan əhaliyə yaxşı bəlli idi. Bax, bu cür ciddi təqiblərə məruz qalan, istedadlı sənət adamları qorxudan heç nə yazmırdı. Əgər kimsə gizlicə nəsə yazırdısa, onları üzərə çıxarmağa cəsarət edə bilmirdi. Oğrun-doğrun yazanların da yeganə çıxış yolu yazdıqlarını gizlətmək olurdu.

***

Aşıq sənətinin ən çox yayıldığı və inkişaf etdiyi bölgələrdən biri də Borçalı mahalıdır. Bu mahalda da çox sayda ünlü sənətkarlar yetişmişdir. Bölgənini aşıqlarının hamısı bu ulu sənətin bütün gələnəklərini hal-hazırda da yaşadırlar.

Ustad Borçalı aşıqlarının söylədiklərinə görə ta qədim zamanlardan bəri saz-söz məclislərində, toy-düyünlərdə ustad sənətkarlar telli sazı sinəsinə basıb meydana girəndə hökmən "Ya mədəd, ya Rəsul səndən mədəd"lə başlayaraq arxasınca bir divani oxuyardılar. Aşıqların məclisi belə başlaması ustadlar tərəfindən çox-çox qədim zamanlardan bəri sənətdə qəbul edilmiş bir qayda hesab edilir. Aradan uzun illər keçməsinə baxmayaraq günü bu gün də əsl sənətkarlar, həqiqi ustad aşıqlar apardığı məclisi hökmən belə başlayırlar.

Əgər məclis aparan aşığa dastan söyləmək sifariş edilirdisə, onda hökmən ünlü sənətkarlardan üç ustadnamə oxunmalıydı. Yuxarıda da qeyd etdiyimiz kimi bütün qədim dastanlarımızın hamısında dinimizə sayğı ön planda durur. Ona görə də xalqımıza məxsus məhəbbət dastanlarının baş qəhrəmanlarının hamısı haqq aşığıdır. "Qurbani", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. dastanların hamısının əsas qəhrəmanı "haqq" aşıqlarıdır. Darda qalan aşıqların

köməyinə “Xızır” çatır, sevgililərə yuxuda butanı “ərənlər” verir. Onlar “qırxlar məclisində” tapılırlar.

Keçmişdə ustad aşıqlar arasında mübahisəli məsələlər ən çətin iş hesab olunan deyişmələrlə həll olunurdu. Bağlanan – məğlub olan aşığın sazı, məğlub edən, yəni qalib gələn aşıq tərəfindən alınardı. Sazın əldən alınması aşıqlıq sənətində çox pis hal hesab olunurdu. Sənət tarixində ünlü ustadların – korifey sənətkarların deyişmələrinin hamısında əsas mövzu dinlə bağlı olmuşdur. Belə ki, deyişmələr zamanı irəli düşən aşıq hökmən dinin ən dərin qatlarına baş vurardı. Deyişdiyi qarşıdakı aşıq da gərək dini dərindən, mükəmməl biləydi ki, cavabı onu və bütün dinləyiciləri razı sala biləydi. Bax, aşıq sənətinin bu cür çox çətin sınaqları vardı. Əgər cavab hamını qane edirsə onda hamı bir ağızdan “ustadına bərəkallah” deyərdilər.

***

Ünlü Gürcüstan aşıqlarının hamısının yaradıcılığında az da olsa dini mövzuda yazılmış şeirlərə rast gəlirik. Əlbəttə onlar öz sələfləri kimi aşıqlıq sənətinin ənənələrinə sadiq qalaraq təbii ki, belə şeirlər yazmışlar. Doğrudur, ötən əsrdə yaşamış bəzi aşıqların qoşquları arasında belə şeirlərə az rast gəlinir ki, bunun da əsas səbəbini yuxarıda da izah etmişdik. Belə ünlü aşıqlara misal olaraq Aşıq Məsim Bəyazidli, Aşıq Sadıq, Aşıq Əmrah və s. göstərmək olar. Bu sənətkarlarla eyni dövrdə yaşamış və vaxtında gizləyib saxlamış bəzi aşıqların isə bu mövzuda qoşquları ola bilsin ki, lap çoxdur.

Ümid edirik ki, gələcəkdə bu sahə ilə məşğul olan araşdırmaçılar onları ortaya çıxaracaqlar.

***Prof. Mahmud KAMALOĞLU***



# GÜLLƏR PƏRİ

(1799-1922)

Pəri Oruc qızı Borçalının Faxralı kəndindəki Güllər nəslindəndir. Faxralı elində ta qədimdən bəri bu ocaq şairlər nəsli kimi tanınır. Yəni Güllər nəslindən xeyli söz adamı yetişmişdir.

Çıldırlı Aşıq Şenlik tez-tez Borçalıya səfər etdiyi zaman onun ən çox dayandığı məkanlardan biri də məhz Faxralı eli olmuşdur. "Çıldırlı Aşıq Şenlik" kitabında Güllər Pərinin ünlü ozana göndərdiyi bir qıfılbənd var. Güllər Pərinin göndərdiyi həmin qıfılbənddə şair öz təxəllüsünü "Şikəstə Pəri" kimi işlətmişdir.

Onu da qeyd edək ki, həmin kitabda verilmiş qıfılbənd və onun Şenlik tərəfindən açmasının ön sözündə belə bir qeyd də var: "...Gürcüstanın Busetli (bu kənd Faxralının bir məhəlləsi hesab edilən Şahbuzlu kəndinin digər formada işlədilən Şahbuzetlidir) köyündən Şikəstə Pəri adlı bir qadın saz şairi Şenliyə üç bənd qıfılbənd yazıb göndərir".

***Şikəstə Pəri:***
Məhəmməd Mustafa ərşi əlada,
Çəkilib Minaya axça nədəndir.
Suru Selsebildən doldurub badə,
Gətirib dəhana dürdanədəndir.

***Şenlik:***
Makamı rəsuldur Şəfatullah,
Səmada mehracı gördü nədəndir,

Hikməti Hüdanın kəramətindən,
Ərşi mah üzündə durdu nədəndir.

***Şikəstə Pəri:***
Əmirul möminə oldu əfitab,
Göydən yerə endirdilər dörd kitab,
Nurdan külah örtdü altdan sərəntab,
Dörd kitabın əsli xırda nədəndir.

***Şenlik:***
Tövrətə sahibəl oldu yəhudi,
İncilə xaçpərəst bizimdir dedi.
Zəburda oxunur Məhəmməd adı,
Quranı İslama verdi nədəndir.

***Şikəstə Pəri:***
Şikəstə Pəriyəm gəlmişəm rayə,
Neçə min surədir, neçə min ayə,
Quranda oxunan Qulhu hudayə,
Yasində sürəbbi nöqtə nədəndir.

***Şenlik:***
Şenlik der: puç dünya oldu bərhəyat,
Yüz on dörd surədir, altı min, altı yüz altmış altı ayət,
Bunun cümləsinə fəhri kainat,
Bir əlif üstünə qurdu nədəndir.



# QUŞÇU ABBASƏLI
(XIX)

Ünlü ozan Aşıq Şenlik haqqında professor Ənsər Aslanın 2001-ci ildə çap olunmuş kitabında belə yazılmışdır: "Aşıq Şenlik dayısı İbrahimlə bərabər Tiflisə səfər etmişdir. Onlar Borçalının Qasımlı kəndində Səməd ağanın misafiri olmuşlar. Səməd ağa Tiflisin usta aşığı Abbası öz evinə dəvət edərək Şenliklə deyişdirmişdir".

Araşdırmaçıların verdiyi bilgilərə görə, məlum olur ki, Şenliklə Qasımlıda deyişən Aşıq Abbas qonşu Quşçu kəndindən olan şair Abbasəli imiş…

Bu tarixi görüş barədə ətraflı məlumat verən tədqiqatçı A.Kirəcli belə yazır: "...Mustafa ağa Arifin müasiri (XIX) olan şair Abbasəlinin Çıldırlı məşhur aşıq Şenliklə deyişməsi…" özündən sonra el arasında yayılmış, dastana çevrilmişdir.

## Abbasla Şenliyin deyişməsi

***Abbas***
Siftə nədən bina qurdu dünyayı,
Zaftı neçə sir üstündə əyləndi?
Yeddinci zəminin ismini söylə,
Rafi  dəngə nə üstündə əyləndi?

***Şenlik:***
Haq nurundan bina qurdu dünyayı,
Canlı cinli sir üstündə əyləndi.

Yeddinci zəminin İsmi əcvadır,
Rafi dəngə yer üstündə əyləndi.

***Abbas:***
Əzraildən sonra bilsin kim ölü,
Kimin qəzəbində fəthi cəng olu.
Kaç min illik yoldu Siratın yolu,
Neçə bəla şər üstündə əyləndi?

***Şenlik:***
Əzraildən sonra əcəl də öldü,
Yəhya qəzəbində qatı cəng oldu.
Üç min illik yoldu Siratın yolu,
Yeddi Tamu nar üstündə əyləndi.

***Abbas:***
Abbas da bu raha qoyubdu üzü,
Nə donda yaratdı löhi-məhfuzu.
Kimdir deyər, deyər tükənməz sözü,
Çəkər ahu-zar üstündə əyləndi…

***Şenlik:***
Şenlik der qaradır namərdin üzü,
Yaqut əhmərdəndir lövhi-məhfuzu.
Loğman deyər, deyər tükənməz sözü,
Çəkər ahu-zar üstündə əyləndi.



# XƏSTƏ HASAN

Xəstə Hasan – Hasan Vəli oğlu hicri tarixi ilə 1214-cü ildə (təxminən 1800-cü ildə, Axırkələyin Lebis kəndində dünyaya göz açmışdır. Onun yaşadığı dövrdə həmin bölgədə xeyli sayda çox böyük ustad sənətkar olmuşdur.

Xəstə Hasan zəmanəsinin ünlü saz-söz xridarlarından olan Aşıq Polad, Qul Qərani, Ömər, İrfani və başqalarının ilə də deyişmələri olmuşdur.

Ünlü sənətkar bir çox gənc aşığa ustadlıq edərək onlara sənətin sirlərini öyrətmişdir.

Xəstə Hasan 1866-cı ildə vəfat etmişdir.

Bu ustad aşıq haqqında kitab 2009-cu ildə Tiflisdə işıq üzü görmüşdür.

## Nədi?

Din Məhəmməd dini, tapdığım tapı,
Yıxılmaz mövlamın yapdığı yapı.
On iki bağçada qırx səkkiz qapı,
Qapısında duran iki qul nədi?

Qıldan incə derlər Siratın yolu,
Önündə dövləti, ardında alı.

Üç yüz altmış altı, səbinin dalı,
Dalında açılan iki gül nədi?

Xəstə Hasan deyər dünyanı gəzdim,
Oxudum, "Yasin"i, əzbərə yazdım.
Haqqın hikmətilə bir gəmi düzdüm,
Gəmi nədi, dərya nədi, sel nədi?

## Allahın aslanına

Həm kərimsən, həm alimsən, həm qüvvətli, həm də uca,
Gecə-gündüz könlüm istər, dilim eylər iltica.
Qapında bir ac doydursan, elə bil getdin haca,
Cəbrayıl ki, vəhy gətirdi, "ay Rəsul, gəl sən Meraca",
Xətəbin nişan verdi, Allahın aslanına.

Cimcimədən yol eyləyib, Qəhqaha kəmənd atan,
Məhəmməd Əli Mürsəlin Abu Talıbdır atan.
Gecə-gündüz cəng eyləyib qolunda qana batan,
Sayılı borşdan qurtarıb, başın nəffara satan,
Yoxdur ki, sənin kimi ər, ərənnər meydanında.

Aşıq oldum, dünya gəzdim, doymadım dünyadan hələ,
Onun tər camalına cənnətdən alma gələ.
Almanın çarpa qılasan, əlində üzüm qala,
Bu dünya belə yaranıb, çoxların yola sala,
Gəl ey Xəstə Hasan, üz vurmaginan, çox sofu dumanına.

## Gərək
(qıfılbənd)

Bizdən səlam olsun, ustad olana,
Haqqın divanında nə demək gərək.
Orucun tutmağa, namaz qılmağa,
Yarın məhşər günü nə demək gərək.

Məhərrəm ayı da denməz hər aya,
Cəbrə düşər imdad gələr araya.
Səhrada bir meyit düşsə oraya,
Molla bulunmazsa nə demək gərək.

Xəstə Hasan dəryalara dalanda,
Təbib sənsiz yaralarım saranda.
Əzrail göz önə mehman olanda,
Dilim bəndə düşər, nə demək gərək.

## Kim idi?
(qıfılbənd)
Adəmnən əvvala fani dünyada,
O zaman Süleyman olan kim idi?
Hökmətdə əyləşən, hökm eyləyən,
Hatifdən nidası gələn kim idi?

O zaman şəryəti kimlər oxudu,
Kaç millətdə can var, cəsəd yoxudu,
Adəmnən əvvələ siğə yoxuydu,
Oruc tutub namaz qılan kim idi?

O kim idi, çıxdı Turun dağına,
Kim Həzrət Məhəmmədi aldı qucağına?
O kim idi girdi Cənnət bağına?
Cənnətin açarın verən kim idi?

Xəstə Hasan sığınıbdı o haqqa,
Haq divanda haqqı verməz nahaqqa,
Üç min üç yüz əlli dəyqəlik vaxtda,
Söylə mağallaqda qalan kim idi?

## Birdi bir

(divani)

Bizi yoxdan var eyləyən,
Qəni-Sübhan birdi bir.
Abu-atəş, xakı-baddan,
Xəlq olan can birdi bir.
Bir qətrədən xəlq eyləyib,
On səkkiz min aləmi,
Canlı cansız hər nə varsa,
Küllü cahan birdi bir.

Bir budaqda beş alma var,
Birisi şikəstədi,
Otuz hacı, yeddi dərviş,
Birisi güldəstədi,
Üç yüz altmış beş rüzgarı,
On iki bürc üstədi.
Gecə-gündüz gərdiş eylər,
Mahıtaban birdi bir.

Xəstə Hasan sözlərini
Yəqin alıb verəcək.
Bizi yoxdan var eyləyən,
Qılı qıldan seçəcək.
Məğribdən məşriqə hamı,
O divana gələcək.
Padişahlar padişahı,
Hökmü-sultan birdi bir.

## Qul Qarəni ilə deyişmə

***Qul Qarəni:***
Harda bir ağac var, de adı nədi?
Nədən kök atıb da beçəsi neçə?
Neçə min budaqdı, neçə min yarpaq?
O budaq üstündə meyvəsi neçə?

***Xəstə Hasan:***
Cənnətdədi ağac, adı Tubadı,
Nurda kök atıbdı, beçəsi səkkiz.
Beş min budağı var, on min yarpağı,
O budaq üstündə meyvəsi səkkiz.

***Qul Qarəni:***
Şirin canım qurban ola o cana,
Bir arif istərəm mətləbi qana.
Yeridim yetişdim neçə bağbana,
Bağbanı kimdi, bağçası neçə?

***Xəstə Hasan:***
Mən deyirəm canım qurban o cana,
Nə var ki burda ariflər qana?
Getdim çatdım Hasan, Söyün[2] bağbana,
Bağbanı onlardı, bağçası səkkiz.

***Qul Qarəni:***
Qarəni dərdini kimə söyləsin,
Bir aşıq istərəm bəyan eyləsin.

[2] Həsən, Hüseyn

Neçə dəmxanadı tərif eyləsin,
Nədən qapısı var, otağı neçə?

***Xəstə Hasan:***
Qarəni dərdini mənə söyləsin,
Xəstə Hasan bir-bir bəyan eyləsin.
Cənnət dəmxanasını tərif eyləsin,
Zəbərcatdan qapı, otağı səkkiz.

## Bilir
(divani)

Ustadına xidmət edən
Ədəb-ərkan, san bilir.
Ləin şərindən çəkinən,
Atəşi suzan bilir.
İncil, Tövrat, Zabul, Quran
Dörd kitabdı hamısı.
Dördü də haxdır, hax üçün,
Oxuyub yazan bilir.

Səkkiz cənnət liva derlər,
Altındandır yapısı.
Üç saatlıq yola gedər
Müşkü ənbər qoxusu.
On səkkiz min aləm derlər
Bu dünya çarxdır dolanır,
Dövr edib gəzən bilir.

Xəstə Hasan bu dünyada
Dəm mənim, hörmət mənim.
Neynirəm dünya malını,
Söz mənim, söhbət mənim.
Yetmiş iki buçux millət
Həp deyir cənnət mənim.
Ölməyincə bəlli olmaz
Divanda duran bilir.



# AŞIQ ŞENLİK

Hasan Qədir oğlu 1850-ci ildə Türkiyənin Çıldır mahalındakı Suxara kəndində anadan olub (kəndin əvvəlki adı Yaxınsu – indi isə Şenlik qəsəbəsi adlanır). Yuxuda ikən pirlər ona məhəbbət, şairlik butası, el nəğməkarı anlamını verən "Şenlik" təxəllüsünü veriblər. Onun əsli Borçalı qarapapaqlarındandır. XIX yüzilin birinci yarısında Çıldıra köçüblər. Dayısı İbrahim onu  Axırkələyin Lebis kəndində yaşayan Aşıq Nurunun yanına çıraq qoyub.

Aşıq Şenlik tez-tez dədə-baba yurdu Borçalıya gəlib, ən çox da Faxralıda toy-düyün məclisləri aparıb. Özünün düzüb-qoşduğu bir neçə dastanı var. Bir neçə aşığa ustadlıq edib.

Yazdığı bütün şeirlərin çoxu başdan-ayağa dini mövzudadır.

Aşıq Şenlik 1913-cü ildə vəfat edib, doğulduğu kənddə dəfn olunub.

## İbtida

Dərs alıb haqdan oxudum pünhan sirdən  ibtida,
Hər elmə girifdar oldum hüsnü nurdan ibtida.
Pir əlindən badə içən ərz edər ağasını,
Aləmə girifdar eylər Şahi-Mərdan ibtida.

Ağ dəvə zirdəst eyləyib hicri qəmə bələdi,
Salsalı yeksan eyləyib Şəhrizarı taladı.

Heybərin qapısın qırıb tufan tək zəlzələdi,
Əntərə zaval yetişdi zülfüqardan ibtida.

Rəsula aslan donunda göstərdi heybətini,
Qahqaha qəzzab şanıyla yeksan etdi fəthini.
Şenlik söylər şahi-mərdan Murtuzanın məthini,
Cənabı Mövlam eşqinə keçdim sərdən ibtida.

## Sən

Ey könül sidqilə yalvar, o qəni Mövlaya sən,
Al abdəsti, qıl namazı daima qibləyə sən.
Haq tala qulunu sınar, sakın sən olma asi,
Şükür eylə haqdan gələn hər türlü bəlaya sən.

Yoxsulluq da ibadətdir, əgər səbr eyləsən,
İncitmə haqqın qulunu doğru kəlam söylə sən.
Uyma şeytanın felinə, ona lənət eylə sən,
Doğruluq haq qapısıdır, baş vurma hiyləyə sən.

Beş vaxt namaz ki, farzdır, müsəlman olanlara,
Gecə-gündüz zikr edib, haq yolu bilənlərə.
Gündə min savab yazılır cumayı qılanlara,
Şenlik der ki, qulaq assan oxunan səlaya sən.

## Gündü

Bu günə deyərlər Qurban bayramı,
Hacılar murada yetdiyi gündü.
Səksən min ehtacı, doxsan min hacı,
Alıb Ərafata getdiyi gündü.

Bir gecə tuşunda əmr etdi Cəlil,
Kağızı, qələmi alıfdı dəlil.
Ərafat dağında İbrahimxəlil,
İsmayılı qurban etdiyi gündü.

Quyunun içində Yusifi Kənan,
Haqqın təqdirinə gətirdi güman.
Dadına yetişdi ulu bəzirgan,
Götürüb Misirdə satdığı gündü.

Uydu Əzazilə Nəmrudu qara,
Dedi mən şərikəm qəni Səttara.
İbrahim əlini bağladı nara,
Qoyub mancalağa atdığı gündü.

Aldandı iblisə Yezidi ləin,
Onu eşidənlər hey lənət deyin.
Kərbəla çölündə İmam Hüseyn,
Qızıl qan içində yatdığı gündü.

Tur dağından gəldi Həzrəti Musa,
Dil oldu danışdı əlində əsa.
Misir əhalisi tutuldu yasa,
Firəvunla suya batdığı gündü.

Şenlik der peyğəmbər getdi mehraca,
Dürdən libas geyib yetişdi taca.
Qənimət gətirdi yerdə möhtaca,
Əli də Qahqahı tutduğu gündü.

## Olmuşam

İçib eşqin badəsini, vücudu nar olmuşam,
Divanə dərviş misalı, fəryadı zar olmuşam.
Pərişan bülbül qan ağlar, ahu naləmdən mənim,
Dil xəstə, könül şikəstə, həm tarımar olmuşam.

Min il ömür müddət verdi Adəmi saldı aha,
Yeddi yüz əlli Şit yaşadı, doqquz yüz əlli Nuha.
Ərənləri haq edəni fani qılarmı raha,
Düşübdə dünya şərinə, qara əfkar olmuşam.

Şenliyəm xidmət etmədim, daim bir təriqətə,
Uyub iblis yığvasına, çox etdim cürmü xata.
Şəfaət ya Rəsulullah möhtacam mağfirətə,
Üsyanım həddən aşıbdır, çox günahkar olmuşam.

## Aşıq Şenliklə oğlu Aşıq Qasımın deyişməsi

***Şenlik:***
Al sualım budur ay bala Qasım,
O nədir ki, qiyamətə qalıbdır?
Ən ibtida Adəm ata yediyi,
O nədir ki, nə diyardan gəlibdi.

***Qasım:***
Al cavabım budur ay baba Şenlik,
Günah, savab qiyamətə qalıbdı.
Ən ibtida Adəm ata yediyi,
Ağ üzümdü o cənnətdən gəlibdi.

***Şenlik:***
Birinci aşıqsan mənə ver xəbər,
Kimiydi cənginə qəsd etdi səfər.
Habil vurub Qabil ölməzdən əvvəl,
O kimiydi ölüm yox ikən ölübdü?

***Qasım:***
Birinci aşığam al məndən xəbər,
Əzazil cənginə qəsd etdi səfər.
Habil vurub Qabil ölməzdən əvvəl,
Can qavmıdır ölüm yox ikən öldü.

***Şenlik:***
Birinci aşığam hifzimdə Quran,
Mənə badə verdi pirlərlə ərən.
Kimdi günəşin yanında can verən,
Cismi də nə yerdə həyat bulubdu.
***Qaşım:***
Birinci aşığam hifzim də Quran,
Sənə badə verdi pirlərlə ərən.
İdris günəşin yanında can verən,
İsmi də Cənnətdə sadalanıbdı.

***Şenlik:***
Birinci aşığam hərfini seçim,
Lüğəti sən söylə mənasın açım.
Kaç kəs vəhy gəldi Məhəmməd üçün,
Kaç vəhini qeyriləri bilifdi.

***Qasım:***
Birinci aşığam hərfini seçim,
Lüğətini söylə mənasını açım.
Yüz iyirmi dörd min vəh gəldi Məhəmməd üçün,
Altısını qeyriləri bilifdi.

***Şenlik:***
Birinci aşıqsan cavabımı say,
Kimdən oldu ol Rəsulallaha hüsnü ray.
Nübuvətdən vəh gəldi neçə ay,
Neçə ayda hökmü şölələnibdi.

***Qasım:***
Birinci aşıqsan cavabını say,
Haqdan oldu o Rəsulallaha hüsnü pay.
Vəh gəldi iki yüz iyirmi altı ay,
İyirmi üçdə hökmü şölələnibdi.

***Şenlik:***
Birinci aşıqsan hifz et lisanın,
Bilirəm səbrini lütfü ihsanın.
Adı nədir Musadakı əsanın,
Nə yerdə bəxş olub fedalanıfdı.

***Qasım:***
Birinci aşığam hifzi lisanın,
Bilirəm səbrini lütfü ihsanın.
Sübhan əl mubindir adı əsanın,
Cənnətdən bəxş olub fedalanıfdı.

***Şenlik:***
Birinci aşığam vəsf edim indi,
O kimiydi əcəl taxtına mindi.
Öldü çıxdı göyə dirildi endi,
Yenə ərşə qalxdı cudalanıfdı.

***Qasım:***
Birinci aşığam vəsf edib indi,
Harun idi əcəl taxtına mindi.
Öldü, çıxdı göyə dirildi endi,
Yenə ərşə qalxdı cudalanıfdı.

***Şenlik:***
Şenlik oxudu əlifbayı,
Dərs alıb öyrənib hər bir imlayı.
Hansı gündə bina qurdu dünyayı,
Nə gündə müddəti xitam bulufdu.

***Qasım:***
Qasım da oxudu əlif-bayı,
Həm də öyrənmişəm hər bir imlayı.
Bazar günü bina qurdu dünyayı,
Cumada müddəti xitam bulufdu. [3]

---

[3] Deyişmə ixtisarla verilmişdir.



# DOLLU ABUZƏR

Dollu Abuzər 1856-cı ildə Güney Azərbaycanın Urmiyə mahalındakı Dol-Dizək kəndində anadan olub. Təxminən 30 yaşlarında Borçalıya gəlib. Onun dədə-babaları əslən Borçalıdan olub və XIX əsrin əvvəllərindəki qarışıqlıqlarla əlaqədar olaraq Güneyə köçmək məcburiyyətində qalıblar. Borçalıya ilk gəldiklərində əvvəlcə bir müddət Kürüstü Kəpənəkçi, Qasımlı və Qaçağan kəndlərində yaşayıb, sonra həmişəlik Ulaşlı kəndində məskunlaşıblar.

Borçalı aşıq məktəbinin formalaşmasında böyük xidmətləri olub. Burada ondan artıq məşhur aşıq yetişdirib. Məşədi Söyün, Quşçu İbrahim, Məsim Bəyazidli, Aşıq Usub və başqaları onun sənət sığalından keçib.

Dollu Abuzər 1912-ci ildə vəfat edib. Ulaşlı kənd qəbiristanlığında dəfn olunub. Hal-hazırda törəmələri həmin kənddə yaşayır.

## Bax

Zənzivarın padişahı sən də görsən minbəri,
Unutdu tacı-taxtını şəfa gətdi hüdəri,
Uyduq şeytanlar felinə, incitdik Peyğəmbəri,
Əli çaldı Zülfüqarı, biz gəldik imana, bax.

Tut orucu, qıl namazı, sığın şahi-heydərə,
Yazan olsa günahımız heç sığışmaz dəftərə,

İsrafil çalsa surunu hamı gedər məhşərə,
Gəl biçarə Dollu Abuzər ədalət divana bax.

## Gözlər

İbtida əlifdən dərsimi aldım,
Oxudu, öyrəndi Yasini gözlər.
Dərsimi tamamən eylədim əzbər,
Aradı, axtardı ya sini gözlər.

Hər kəs sözlərimə yetirsin diqqət,
O qəni sübhandan almışam rüsxət,
Sebbehə lillahi mafi səmavət,
Dilim kəlmə deyər, ya sini gözlər.

Abuzərəm, deyərəm qül hüvəllah,
Qalmasın dilimdən zikiri-lillah,
Belə aq görmədim, vallahi-billah,
Sözün hər kəlməsi ya sini gözlər.

## Əzəl

Ey xəlayiq, dost tutmayın bu dünyanın malını,
Sidq-ürəklə haqq söyləyin, əlifdi Allah əzəl.
Allahın min bir adı var, hər kəlmədən bəyandır,
Bir adına ya deyərlər, bir adı billah əzəl.

Söyləginən kim görübdür qalu bəladan bəri,
Zöhr olundu, an açıldı qıvladan bəri.
Ol İslamın dayağıdır yerin-göyün ləngəri,
Oturubdur minbər üstə Rəsulullah əzəl.

Gəl beçərə Dollu Abuzər, çağırginən yaradan,
Nə biləcək din qədrini hər ağılsız, hər nadan.
Bir gün olar sinni dolar, köç eylərsəm fənadan,
Kimsədən bir imdad olmaz, Mövladı pənah əzəl.

## "Yüküm" (divani)

Ariflər, diqqət edin,
Görün nə haldı yüküm.
Sinəm bəzzazın dükanı,
Tirmədi, şaldı yüküm.

Anlayanlar anlayacaq,
Anlamayan beş bular.
Qədrini bilən yanında,
Qovğadı, qaldı yüküm.

Sinəm bəzzazın dükanı,
İpəyim, kətanım var.
Nə cür istəsəniz də,
O cürə satanım var.
Ləli-cövhər axtarıram,
Cəvahir mədənim var.
Müştəri gəlsin bazara,
Görsün, nə maldı yüküm.

Gəl, beçərə Dollu Abuzər,
Dinlə, Qadir-Sübhanı.
Dərinund[4]a dərk edibən,
Çağır on iki imamı.
Axır bir gün qurulacaq,
Ədalətin divanı.
Bərillahım, imdad eylə,
Günahdan boldu yüküm.

[4] İçərisində



# MİSKİN NƏBİ

Nəbi Oruc oğlu 1873-cü ildə Borçalının Faxralı kəndində anadan olub. Uşaqlıqdan ailəsinin bütün ağırlığı onun üzərinə düşüb. Bir neçə kənddə nökər, çoban, fəhlə işləyib. 20-25 yaşlarından bir el şairi kimi ad çıxarıb. Miskin təxəllüsü ilə şeirlər yazıb. İlk dəfə onun yaradıcılığı ilə Səməd Vurğun maraqlanıb. Saz-söz məclislərində həmişə öndə olan Miskin Nəbinin şeirləri toplanaraq "Yazılanlar gəldi başa", "Eləsi var..." adı altında Bakıda işıq üzü görüb.

Şair Nəbi 1945-ci ildə Faxralı kəndində vəfat edib.

## Əlif-Lamlar

**Bənzər**

Əlif - Əvvəl yarı tərif eylərəm,
Bey – Bağı behiştdə gülşənə bənzər.
Tey – Təhərrük vəfadarın bəyanı,
Sey – Sirri bilinməz mədənə bənzər.

Cim – Camalı bəd eyləmiş dünyanı,
Hey – Halı həyatda mələklər sanı.
Xey – Xəyalım dalmadadır dəryanı,
Zal – Zəhmətdən solmuş gulşana bənzər.

Rey – Rəhm eyləsə dərdi-möhnətə,
Zey – Zillət çəkmərəm qəmi firqətə.

Tey – Təriqət mətləbidir xilqətə,
Zad – Zərnişan sinən rizvana bənzər.

Ayn – Əyan olur cismim dolanı,
Ğayn – qənimətdən cismim talanı.
Fey – Fəhminən aşkar etdim mən səni,
Qaf – Qədri camalın cahana bənzər.

Kaf – Kərəm eyləsin ərz edib halı,
Lam – Lüğət kəsb edim, öyrənim barı.
Mim – Minnətim yoxdu incidim səri,
Nun – Nurun şöləsi asmana bənzər.

Hey – Hesaba gəldi Nəbi ülfəti,
Vav – Vaxtı məhşərdə dillər izzəti,
Laməlif – la Yeydən qıl ibadəti,
Elmi - ərkan olu imana bənzər.

## Pərvərdigar

Yapışmışam dərgahına yazıq mən, pərvərdigar,
İlahimsən, irəbbimsən, kərəmsən sən, pərvərdigar.
Cəlalına ehtacım var, haq nəsib eyləsin,
Bizə xoş gün qismət eylə, adilsən sən, pərvərdigar.

Oxuyuban gecə-gündüz tamam etdim qaramı,
Əlim yetmədi Ioğmana, kim bağlasın yaramı?
Həm əmrin, həm nəhyin, bilməz halal-haramı,
Yəqindi ki, səndən qalıb, din, iman pərvərdigar.

Şair Nəbi yaxşı bilir, ədəbində əyilməz,
Bu qəlbimdə qara nöqtə, paxır qəlbim silinməz.
Şainində agah olmaz, məlul qalıb bilinməz,
Məhşərdə kimdi qalan, məlul xan pərvərdigar?

## Əliflam və tərs əlifba

Əlif – Dərsim, bey – bəyandı,
Tey – Tanrıya əmanət.
Sey – Sərimin, Cim Cəfası,
Hey – halıma, Xey – Xələt.
Tey – Təriqət, Zey – Ziyarət istəyən,
Ayn – ayda, Ğayn – Qafi bəsləyən.
Fey – Fərmandı, Kaf – Kalamı pisləyən,
Qaf – Qaruna, Lam – Layixdi məsiyət.
Dal – Davada, Zal – Rustam çalışdı,
Rey – Rəhman, Zey – Zəhminə qarışdı,
Sin – istədi, Şin – Şöhrətə yetişdi,
İyitlikdə məlum oldu Satu-Zat.
Mim-Mənimdi, Nun – “Kun” umun sahibi,
Hey – haqq Allah, özün verdin bu təbi,
Vav – Vaxtında, Yey -Yerində hesabı,
Nəbim deyər, Lam – Əlif – La bir izzət.

## Hey durur

Yey – yəqindi, laməlifla, xaliqim,
Vav – varanda, qarşımızda hey – durur.
Talib oldum ismi şəni söylədim,
Bu sinəmin dəftərində Yey – durur.

Nun - Nuranı bir şəxs verdi payımı,
Mim – mətinin kimsə verməz sayını.
Lam – Lətifdi, heç an sevməz xayını,
Kaf – Kalamı, qurulubdu yay durur.

Qaf- Qədərim diləmişəm yazana,
Fey - Felimin halı düşsün düzənə.
Ğayn - qalsın, gizli sirrim Sübhana,
Ayn - Əyyan Zəmin-asman Fey - durur.

Zey - Ziyandı bu dünyanın cəfası,
Tey - Təriqə mümkün olan vədəsi,
Zey - Zata səy edər, qurtular bəhsi,
Şin - Şöykətim calallanıb, say durur.

Sin - Sinəmin dəfdərini açaram,
Zey - Zəhmətlə bu dünyadan köçərəm.
Rey - İstərəm qanad açıb uçaram,
Zad – Zalındı, daldasında Xey - durur.

Mən Nəbiyəm, Hey hesabsız dərmənəm,
Cim - canını San - savava vermənəm,
Tey - Tanrımdı, görünməzdi, görmənəm,
Bey - Bismillah, Əlif - Allah say durur.

## Heç

İslamı qəbul edən kəs vacib bilməzmi heç?
Əsli Adəm əmbiyanı yadına salmazmı heç?

Xof edib dam odundan səcdeyi-xaka düşər,
Ağlar cismin zəif edər fanidə gülməzmi heç?

Sidqinən imtahan olsa zehnim ummana çatar,
Dərs alıb kitab oxuyan elmi-fürqana çatar.
Ustası pir talib olsa gövhəri-kana çatar,
Beş sulidin əmri kamil sərinə dolmazmı heç?

Hövlü ha cəhənnəmdə ataşı var, abı yox,
Şirin canım nəqabildi, əcəl gəlsə tabı yox.
Şair Nəbi elmi bilməz, lüğətin hesabı yox,
Dərdimi halbahal elər mətlubum bulmazmı heç?

## İbtida

Əzalarım zöhhə gəldi, lütfü candan ibtida,
Yüz iyirmi dörd min nəbi, keçdi candan ibtida.
Yaradıbdı yernən göyü, çarxı-dövran fırlanır,
Azrayıl sənət qıldı, durdu canan ibtida.

Çün varıdır kəraməti, möminі etməz məlul,
Yapışmayan dərmanına daima olur zəlil.
Otuz min ayət təfsiri başdan-başa müttəsil,
Dilək edib, mətləb allam o Sübhandan ibtida.

Mən Nəbiyəm, atəşinə yanmağa yoxdur halım,
Qıl körpü nizam-tərəzi, orda gəzir xəyalım.
Üz görübən, rüşvət almaz həqiqətdi amalım,
Yaranmışam, xof edərəm, o divannan ibtida.

## Əlif Əvvəl

Əlif – Əvvəldi, daimi, qədim,
Aləmə xaliqsən sirlər oyandı.
Bey – Binnət etdiyin çarxı-cahandı,
Necə Seydi, Sey – Sahibi-Subhandı?

Necə Cimdi - cavabları car edər,
Necə Heydi - qəbahətdə ar edər.
Necə - Xeydi xayinləri xar edər,
Necə Daldı – Nəkrayınlar sorandı?

Necə Zaldı - çox yetişdi zəfəri,
Necə Reydi - heç sevmədi kafəri.
Necə Zeydi-Zir eyləyib zəbəri,
Necə Sindi-kəlamlarda bəyandı?

Necə Şindi-Şaha yazdı baratı,
Necə Satdı-Əziz qaldı söhbəti.
Necə Zatdı-Zəbt eylədi möhnəti,
Necə Zeydi-Zey zəminə davadı?

Necə Ayndı-Silinmədi aynası,
Necə Ğayndı-Özündədi mənası,
Necə Feydi-pak olmadı sinəsi,
Necə Kafdı-hicri kama boyandı?

Necə Qafdı-Göydən gətdi Cəbrayıl,
Necə Lamdı-qurban kəsdi İsmayıl,
Necə Mimdi-Qulluğunda Mikayıl,
Necə Nundu-Zəmin, asman dayandı?

Şair Nəbi, Hey-hidayət kalamı,
Necə Vavdı-kamil eylər islamı,
Lam-Əlif-La Yeydən aldım ənamı,
Aramışam bu ilqarı-imandı.

## İnnən belə

Cəhalət baş varmaz, olmam nadan innən belə,
Dilək edib, kəsb edərəm, duadan innən belə.
Gələnlər ki, var, gedəcək sıradan innən belə,
Alimlərdən təriqət al, mərifətdə mahir ol,
Keçibdi ol zamana, qaradan innən belə.

Firudun cəlalına münasib yapdı qala,
Nəmrud mənəm dedi, artırdı yüz min bala.
İsfəndiyar qal eylədi, neylədi Rüstəm Zala?
Eyləmə fitnə-fəsad, düşərsən qəhri yola,
Gəl götürək bu şeytanı aradan innən belə.

Abı-atəş, xaki-baddan mayasın buldu insan,
Yaxşı-yaman ömür keçdi, tarixlər oldu tamam.
Gərdiş etdi çərxi-dövran, çoxları getdi nakam,
Daha bəsdi insan oğlu, çəkdiyin zillət-sitam,
Köç eyləyək haqq yerinə, buradan innən belə.

Gəl biçarə şair Nəbi, haq dini, islamı gör,
Cəbrayıla nazil oldu, gətirdi Quranı gör.
Əvvəl Adəm, axır xatəm, ədalət divanı gör,
Ruzi-şəbi zikr eyləyib, ol Qanı-Sübhanı gör,
Bəlkə çala xeyir qələm, Yaradan innən belə.

## Çox şükür

Yazılanlar gəldi başa, qələminə çox şükür,
Cümləmizə muraz verən, kərəminə çox şükür.
Göydən dörd baş kitab endi, əzəl başdan İncili,
Biz götürdük ol Quranı, kəlamına çox şükür.

Şivəni məhşər günüdü,  yarəb, kim çəkir zillət?
İsrafil Surun çaldı, gəldi nə ki, var millət.
İbtida əfv olundu gər hümməti-Məhəmməd,
Əl götürüb duva qılan, salamına çox şükür.

Gəl biçarə şair Nəbi, sərin sövdaya düşdü,
Çatıldı ol qıl körpü, neçə mömin qul keçdi.
Quruldu mizan tərəzi, yarəb, nə hikmət işdi,
Biz də gəldik bu divana, divanına çox şükür.

## Əlif-lam

Əlif - əvvəl ərz eyləyim,
Bey – Kamildi Qabilim.
Tey – tamamən seyr eylədim,
Sey – Kamildi Qabilim.
Cim – bu canım niyaz edər,
Hey – xəyalım ziyadə,
Yar – dedimi yaradana,
Xey - Kamildi qabilim.

Dal -dahanda əzbər etdim,
Vacibatı yazılı.

Zal – zamana, çarxı-asman,
Hər fənaya düzüldü.
Rey – rəm atdım,
Zey – zillətin bəyanı.
Sin – sana talıb oldum,
Tabısından üzülü,
Əmrində küllü cahan,
Yey – Kamildi qabilim.

Sar - Sandım bu hurufatı,
İndi buldum qaçını.
Satı - Datın kəraməti,
Dəd - Dilədim suçumu,
Zey – Zəhməti qəbul etdim,
İmtahana yolum var.
Əgər varsa xilaf edən,
Ayn - Ara içini,
Ğayn kı, - qafil olmam,
Fey - Kamildi qabilim.

Əlif – Ayət, kaf qadirdi,
Kaf - Kamanın nişanı,
Lam - Əyyamım belə keçdi,
Mim – Mət etdim bu şanı,
Ey Rəbbim, sən ki, Qadir.
Nun – Numutda, sinəm dəftər tükanı,
Daima Sübhan deyər,
Hey – kamildi qabilim.

Xəyalı Miskin Nəbinin,
Vav – varıb gizlin bəyanı,
Fürqanda yüz min hərf,
Vəsf eyləyim şanını.
Gecə-gündüz xəyalımda,
Laməlif-la sanılı,
İsmi tutub göydən yeri,
Yey – Kamildi Qabilim.

## Allah

Oxudum kəlmeyi-tohidi yəqin bildim var Allah,
Cəmi cəhət ki, səndədi təki ixtiyar, Allah!
Yetişərsə xoş nəzərin aləmi edərsən şad,
Məxluqata ruzi verən – yetir kəsbi-kar, Allah!

Hinkir-münkir gələndə soracaqlar hesabın,
Özüm zəif, yerim zindan nə olacaq cavabım?!
Əgər atsan cəhənnəmə, atəşə yoxdu tabım,
İrəhmin çox gözəldi, qəzəbindi nar, Allah!

Məhşərin hovlu şiddəti bir gün gələr başıma,
Günahkar bəndənəm məni yandırma atəşinə.
Həcərul-əsvəd Kəbənin qurbanam hər daşına,
Sığınmışam cəlalına sən olasan yar, Allah!

Şair Nəbi qüssə çəkir, qərq olubdu qəminə,
Nəkrailin sualına, Əzrailin zəhminə,
Vəzni Qaf olsa günahım möhtacdır rəhminə,
Bağışlarsan öz feyzinnən, etdim etibar, Allah!

# Açardı bu

Cismi-canda murğularım, səf çəkib uçardı, bu,
Xəyalım cəvahirdən dürdanə seçərdi bu.
Könlüm gəzər gülşənləri, xar güldən köçərdi bu,
Zehnimin kəşkülünü atmışam dəryalara,
Əcayib qəvvas olub, dəryadan keçərdi bu.

Arayıban ərkanını hər kəsdə gəlməz yola,
Əzrayıl hökmlə gəlsə, duşər cana vəlvələ.
Nəkrayıl sual edər, kəlmə gətirməz dilə,
Məqamı marı-əqrəb tamam qurşanar belə,
Çəkərlər bır mənzilə cadalar düşər sola,
O dəmdə ki, şəfa bulmaz, məhşərdə naçardı bu.

Şair Nəbi göz tikibdi, mim-Məhəmməd, nun-nura,
Şəninə endi Quran, yazıldı kitablara.
Sözlərindən nəf eylərəm irəhmət ustadlara,
Altı min altı yüz altmış altı ayət, yüz on dörd sura,
Lailaha-illallah, dedim, şəhadətdə ilqara,
Dəstimdə namə olur, behiştdə açardı bu.



# AĞACAN

Ağacan Cabbar oğlu Cabbarlı 1876-cı ildə Şorayil mahalının Qarakilsə kəndində dünyaya gəlib. 1911-ci ildə Borçalının əvvəlcə Quşçu kəndinə ordan da Qaçağan kəndinə köçərək məskunlaşıb.

İlk təhsilini Qarakilsə kəndində mədrəsədə alıb. Sonra təhsilini Türkiyədə davam etdirib. 1943-cü ildə Sovet hökuməti əleyhinə təbliğatda ittiham olunaraq həbs olunub. S.Vurğunun köməyi ilə həbsdən azad olunub. 1949-cu ildə yenidən həbs olunaraq Sibirə sürgün edilib. 1951-ci ildə sürgündə vəfat edib.

Borçalının bir çox ünlü aşıqları Ağacana xidmət edib, ondan sazın-sözün sirlərini öyrəniblər.

Haqqında Bakıda (2006) "Dəryadı-ümmandı şair Ağacan" adlı kitab çap olunub.

## O daşa

Əzəl Allah, sonra Məhəmməd, Əli,
Beş kimsələr həkk olunub o daşa.
Naşı sərraf bilməz onun qiymətin,
Arif olan qiymət qoyar o daşa.

Mərd igidin mən olaram qurbanı,
Verə urfanı, kəsə qurbanı.

Urəfalar bir yol kəsər qurbanı,
İslam olan üzün sürtər o daşa.

Yazıq Ağacanam, bağrı yaralı,
Xeyli qəmzə bağrım, başım yaralı.
Kamandarsan yaxşı gözlə bərəni,
Kəlləsindən təkərlənmiş o daşa.

## Məndədi

İki dedəm bir Allaha,
Hökmü-quran məndədi.
Sanmaginan pəhləvanam,
Demə meydan məndədi.
Hürufatı cəm eyləyərəm,
Soraram sənnən hesab,
Qurular mizan-tərəzi,
Adil-divan məndədi...
Peyğəmbərim xəbər alsa,
Yüz iyirmi dörd min tamam,
Cəmi ərəb kimsənədən,
Mən olmuşam imtahan,
Ustadımdı Şiri-Yəzdan,
Haqqı on iki imam.
Çağıranda dada yetən,
Şahi-Mərdan məndədi.
Hürufatı cəm eylərəm,
Ara-axtar bir sanı.
Əlfin altında qoyubdu,
Qədir muxtar nağdanı.
Dərdi olan gəlsin alsın,

Ağacandan dərmanı.
Xəstələrə şəfa verən,
Cəmi loğman məndədi.

## Qırmızı

Aləmi röyada bir kitab gördüm,
Qaradır kağızı, yanı qırmızı,
Min bir mənası var hər varağında,
Bəzi yaşıldandı, bəzi qırmızı!

Çox görmüşəm havalanıb uçanı,
Saz götürüb, özü meydan açanı.
Gəl danışaq bu meydandan qaçanı,
Görüm çiyid olsun gözü qırmızı!

Ağacanam, duman getməz başımdan,
Ağama qul oldum, on dörd yaşımdan.
Peşman olan yaralansın döşündən,
Üç qədəm yerisin, izi qırmızı!

## Gələndə

Şəninə oxundu inna la fəta,
Yadullahım o Xeybərə gedəndə.
Qeyznən götürdü o Zülfüqarı,
Necə çaldı o Əntərə, gedəndə.

Salsalın cəngindən əlamət oldu,
Gün üzü tutuldu, zülümət oldu.

Mələklər sandılar qiyamət oldu,
Münacatın o göylərə gedəndə.

Böləndü əjdaha, açıldı yolun,
Bağı-bağça oldu sağ ilə solun.
Yazan bu kəlməni olaydım qulun,
Şaman ilə şəhrzadə gedəndə.

Gün olar qurular ərasətin meydanı,
Nizam tərəzisi, adil divanı,
Seçmə qullarından sən Ağacanı,
Qıl şəfqəti o mənşərə gedəndə.

## Döndər

Əlifbeydən bir bismillah oxuyum,
Onun kəlməsini bəyana döndər.
Neçəsi aşkardır, neçəsi pünhan,
Həqiqət, təriqət ayana döndər.

Beydi, sindi, mimdi, heydi bismillah,
Neçə hürufatda o kərimullah?
Cahana gələndə ismi Yadullah,
Kim səslədi üzün bəyana döndər!

Beytülhərəm açıxdımı, bağlımı?
İmtahan et kamalımı, ağlımı.
Şikar etmək istəyirsən könlümü,
Nə şad eylə, nə də ki, qana döndər.

Var ilahim nəzər qıldı, ucaldı,
Hansı dağdı qızıl idi tunc oldu?
Heyif oldu cavan ömrüm qocaldı,
Allahım, qismət et cavana döndər.

Ağacanam, aşiq oldum yasinə,
Dalı zala, reyi yeyə Yasinə.
Oxumuşam, üz çevirdim yasinə,
Nə qabaq, nə dala ya sinə döndər.



# MƏSİM BƏYAZİDLİ

Məsim Yadigar oğlu Yadigarlı 1881-ci ildə Borçalı mahalının Şamalı kəndində anadan olub. Ancaq o lap körpə ikən bu eldə baş verən bir fəlakət nəticəsində kəndin əhalisi dağılan zaman onların ailəsi də bir çox həmkəndlisi kimi qonşu Bəyazidli kəndinə köçüb.

Sovet dövründə Bəyazidli kəndi Qayaqocalı kəndinə birləşdirilib.

Həm Şamalı, həm də Bəyazidli kəndləri hazırkı Marneuli rayonunun Qırxılı, Qayaqocalı və Qullar kəndlərinin arasında olub.

Ünlü ozan Məsim Bəyazidli bir çox Borçalı aşıqlarına ustadlıq edib. Onların içərisində ən çox tanınmışı Aşıq Əmrah olub. 2016-cı ildə Tiflisdə aşıq Məsimlə bağlı kitab nəşr olunub.

Aşıq Məsim Bəyazidli 1933-cü ildə vəfat edib. Qəbri köhnə Bəyazidli qəbiristanlığındadır.

## Bu gələn

*(Divani)*

Səlli əla ya Məhəmməd,
Gör necə candır bu gələn.
Ətirlənmiş müşkü-ənbər,
Nə xoş rövşəndir bu gələn.
Əvvəl haqqın pəhləvanı,
Məhəmmədə köməkçidir.
Atı Düldül, qulu Qənbər,
Cismilə qandır bu gələn.

Əmindir həzrət Məhəmməd,
Əbu Talibdir ki atan,
İki qurma niqabilə,
Ağ divin bəndin çatan,
Ta səhər sübhə qədər,
Qırxlara layla tutan,
Ağam Əli Şiri-Yəzdan,
Şahi-Mərdandır bu gələn.

Məsim deyər sənsən ağam,
Aləmdə vilayət səri,
Ərşin-kürşün, səmavatın,
Yerin-göyün ləngəri,
İmam Həsən, imam Hüseyn,
On iki imamın səri,
Kafirlərə qılınc çalan,
Şiri-Yəzdandır bu gələn.[5]

[5] Bu şeir ustadın şagirdi Aşıq Əmrahın şəxsi arxivindən götürülmüşdür.



# MUSA QARAÇÖPLÜ

Musa Məhəmməd oğlu Qaraçöplü 1885-ci ildə Qaraçöpün Ləmbəli kəndində anadan olub. Onun atası əslən Borçalının Sadaxlı kəndinin yaxınlığında yerləşən Ləmbəli kəndindəndir. (Hazırda bu kənd Ermənistandadır). Kiçik yaşlarından yetim qalan Musa Sağamoylu Yəhya bəyə, qəssab Şakroya, Hacı Qəhrəmana çobanlıq edib. Körpə yaşlarından bədahən şeir deyib, "Yetim" təxəllüsü götürüb. Zəmanəsinin ünlü aşıqları ilə məclislər keçirib, deyişmələri olub.

Aşıq Musa Qaraçöplü 1965-ci il aprelin 11-də vəfat edib.

2010-cu ildə Bakıda 125 illik yubileyi keçirilib. "Musa eldən aralanmaz" adlı şeirlər kitabı nəşr olunub.

**Şair İbadla Aşıq Musanın deyişməsi:**

**Şair İbad**
Aşıq Musa, sənə bir sualım var,
Əzəl həqiqəti bilən kim oldu?
Nəyi yaratdılar qəm torpağından,
Çox ağlayıb, az da gülən kim oldu?

**Aşıq Musa**
Dünyaya gələndə Həzrəti - Adəm,
Elmi-həqiqəti çox bilən oldu.

Gördü qohumları köçərgidilər,
Çox zaman ağlayıb, az gülən oldu.

**Şair İbad**
O kimdi, aləmdə söylənir adı?
O kimdi ki, cəmi elmin ustadı.
O kim idi, düz üç min il yaşadı,
Axır vaxtı çatdı, ölən kim oldu?

**Aşıq Musa**
O Haqdı, aləmdə söylənir adı,
Cəbrayıldı cəmi elmin ustadı.
O da bu fanidən köçün eylədi,
Uç min il yaşayan tək Loğman oldu.

**Şair İbad**
İbad deyər, kimdi, tutdu yol-ərkan,
Onun hökmündədi kövn ilə məkan.
Nə tifildi, onu əmizdirərkən,
Haqq nəzər eylədi, pəhlivan oldu?

**Aşıq Musa**
Musa deyər, Rəsul tutdu yol-ərkan,
Onun hökmündədi kan ilə məkan.
Əlini anası əmizdirərkən,
Haqq nəzər eylədi, pəhlivan oldu.

***

**Aşıq Musa**
Şair İbad, sənə bir sualım var,

Ən əzəl dünyada nə aşkar oldu?
Dünya yaranmamış, insan yox ikən,
Kimlər gördü onu, xəbərdar oldu?

**Şair İbad**
Aşıq Musa, al cavabın, deyirəm,
Əzəl Haqqın nuru aşikar oldu.
Dünya yaranmamış, insan yox ikən,
Məleykələr gördü, xəbərdar oldu.

**Aşıq Musa**
Birəbbikum kəlmə Haqq kimə dedi?
Mən-mənəm, sən-sənsən, kim ona dedi?
Zəqqum ağacının yarpağın yedi,
O kimdi, ağzında zəhrimar oldu?

**Şair İbad**
Birəbbikum kəlmə Haqq nəfsə dedi,
Mən-mənəm, sən-sənsən, nəfs ona dedi.
Zəqqum ağacının yarpağın yedi,
İlandı ağzında, zəhrimar oldu.

**Aşıq Musa**
Musa deyər, kimdi səni aldadan,
İnsan oğlu, gör gəlibsən haradan.
Kimdi, bilir köçəcəkdi dünyadan,
Ancaq vədəsində beyxəbər oldu?

**Şair İbad**
İbad deyər, doğulubsan anadan,

Dünya səfasıdı səni aldadan.
İnsan bilir, köçəcəkdi dünyadan,
Ölüm vədəsində beyxəbər oldu.

## Yazdılar

Qəmin torpağınnan Adəm yaratdı,
İnsanları baxtiqara yazdılar.
İnsan var ki, ruzusunu yığandı,
Bəzisini hər diyara yazdılar.

Dərdlərin dərmanı, bir əlacıdı,
Axır zaman insanların tacıdı.
Adam var, dindirmə, sözü acıdı,
Hər birini bir kəftara yazdılar.

Sənan da Tiflisdə sevdi tərsanı,
İbadətlə dolanırıq hər yanı.
Fərhad da dağıtdı səngi-qalanı,
Məcnunu da çöl-diyara yazdılar.

Gəlin, sizə deyim, düzüm dastana,
Kişilər hökm elədi bütün cahana.
Çox kafirlər gəlmədilər imana,
Qətlini də Zülfüqara yazdılar.

Haqq özü ona da çox verdi zəhmət,
Çün dostuydu, eyləyirdi məhəbbət.
Əyyub xəstə düşdü çox uzun müddət,
Yazıq Mənsuru da dara yazdılar.

Ay həzərat, görün bu necə işdi,
Könül bir bülbüldü, timsalı quşdu.
Musa burda min bir kəlmə danışdı,
Haqq sözünü o küftara yazdılar.
Arif gərək bu sözümə inana,
Həqiqəti ərz eyləyim mən ona.
Gördü, gəldi bir axirət zamana,
İnsanı da o göylərə yazdılar.

Nəbilər qalmadı aləmdə məyus,
Xudanın özüydü onlarnan dost.
Yoxsullar piridi Həzrəti-Yunus,
Xəlili dövlətə, vara yazdılar.

Xeyli müddət açılmadı o sirr də,
Axır bəyan oldu bütün hər yerdə.
Yusif gedib bir şah oldu Misirdə,
Yəqub, Kənanı da zara yazdılar.

Musa həqiqəti eyləyir dastan,
Xub qanar sözümü çox arif olan.
Aşıqlıq edirəm Aşıq Teymurnan,
Mənimkini arvadlara yazdılar.

## Söylər

Ay yoldaşlar gəlin sizə söyləyim,
İnsan olan dərdini insana söylər.
Namərdi dindirsən "tək mənəm" deyər,
Mərdsə bu sözünü mərdanə söylər.

Ərəb-fars bilmir ellər, obalar,
Gah yadıma düşür hardan, haralar.
Hərcayi aşıqlar, dayaz mollalar,
Səhv qatar hər sözə Qurana söylər.

Siz dinləyin bu şairin sözündən,
Həqiqidir, hiss eyləyin üzündən.
Beynamaz düşübdür Haqqın gözündən,
Öz ürək sözünu şeytana söylər.

Həcv ilə hədyanın nə olar məti,
Çünki gerçək deyil, yoxdur qiyməti.
Fasiq qılar-tutar, itər zəhməti,
Gedib əli çatmaz İmana söylər.

Eşq əhlinin müdam ahu-zarı var,
İnşallah, könlümün xiridarı var.
Qulun qul yanında etibarı var,
Musa da dərdini Sübhana söylər.

## Xəstə Qasımın "Var" rədifli bağlamasının açması

**Xəstə Qasım**
Ağlı bəndər, gəlin dünyanı görək,
Üç başı, dörd gözü, qırx ayağı var.
Könül bir şəhərdir, bir də birtəhər,
Qırx qapı, qırx kilid, qırx ayağı var.

**Aşıq Musa**
Xəstə Qasım, mən cavabın deyirəm,
Fəslimiz üç aydı, dörd həftəsi var.
Çahar fəsli bircə ilin qərarı,
İmamın qırxının qırx ayağı var.

**Xəstə Qasım**
Qırx qapı, qırx kilid, qırx qotaz gəzər,
Qırx qapaz da onun cəbrinə dözər.
Qırx qələm, qırx kağız, bir molla yazır,
O necə molladı, qırx ayağı var.

**Aşıq Musa**
Qırx bismillah oxunar, qırx qotaz bəzər,
Qırx Əl-həmdə onun cəbrinə dözər.
Qırxı oxuyanda, bir molla yazar,
Axır Qul hüvəllahın qırx ayağı var.

**Xəstə Qasım**
Qırx məscid, qırx çıraq işıqdı, işıq,
Yığılıb gələydi qırx molla, aşıq.
Bu sözlərin dolaşıqdı, dolaşıq,
Hər bir mənasının qırx ayağı var.

**Aşıq Musa**
Qırx Yasin oxunur, işıqdı, işıq,
Nə lazım, yığılsın qırx molla, aşıq.
Mənalarda zərrə yoxdu dolaşıq,
Qırx müdam oxunur, qırx ayağı var.

**Xəstə Qasım**
Xəstə Qasım, qırx şəhərdi, qırx küçə,
Əgər xəbər alsan, necədir necə.
Qırx usta istərəm, sözlərim yaza,
Hər bir mənasının qırx mənası var.

**Aşıq Musa**
Könlüm təsvir edir o minbir adı,
Bütün aləmlərin odu ustadı.
Qırxda oxunan yeddi surədi,
Musa deyər, qırxın budu ayağı var.

## Xəstə Qasımın "Nə demək gərək" bağlamasına cavab

**Xəstə Qasım**
Məndən salam olsun, oturan bəylər,
Allahın əmrinə nə demək gərək?
Bu gün beytullahı sidqim Allahı,
Könlüm qibləgaha nə demək gərək?

**Aşıq Musa**
Haqq əmrinə ruhun "bəli" deyibsə,
"Dildə çağır, ol Sübhanı" deməkdi.
İnsan təcəllaya səcdə qılarsa,
"Təsvir eylə Yaradanı" deməkdi.

**Xəstə Qasım**
Qəlbi xainlər gəlməz buraya,
Ərəsətdə kimlər gələr haraya?
Seyrangahda meyit düşsə araya,
Mollası olmasa, nə demək gərək?

**Aşıq Musa**
Nəsib olmayana oxunmaz aya,
Məhşər günü Rəsul gələr haraya.
Mollasız bir meyit düşsə araya,
"Çox qazanıb o üsyanı" deməkdir.

**Xəstə Qasım**
O kim idi, yediyini bilmədi,
O kim idi, namazını qılmadı.
O kim idi, göz yaşını silmədi,
Qəzeyi-məhşərdə nə demək gərək?

**Aşıq Musa**
O, uşaqdı, yediyini bilmədi,
O, buluddu, göz yaşını silmədi.
Minkir idi, namazını qılmadı,
"Od yandırar günahkarı" deməkdi.

**Xəstə Qasım**
Xəstə Qasım dəryalara dalıbdır,
Əcəl gəlib göz önündə durubdur.
Əzrayıl sinəmə qonaq olubdur,
Dilim bəndə düşüb, nə demək gərək?

**Aşıq Musa**
Musa vəsf eləsin, sən eşit, inan,
İnsan əmanətdi, belədi cahan.
Əzrayıl gələndə, aldadar şeytan,
Hoydu, oxu ol Quranı, deməkdi.

## Əli hey

Ay ağalar, gəlin, sizə söyləyim,
Yaxam tutub bir qanmazın əli hey.
İstəsən, oxuram dörd gözəl ismin,
Abubəkr, Ömər, Osman, Əli hey.

Nurdan xəlq olunub afərin özü,
Mələklər vəhy gətdi, muşdular bizi.
Bəzəndi yer ilə göylərin üzü,
Adı mimdi, ismi vardı ulu hey.

Musa deyər, namərd mənzilə yetməz,
Nutvədən gəc alan kamala çatmaz.
Bədəsilə yüz söz desən, eşitməz,
Nə nəsihət alı, nə də bili hey.



# AŞIQ SADİQ

Sadıq Hasan oğlu Sultanov 1893-cü ildə Qərbi Azərbaycanın Dərəçiçək mahalının (hazırkı Ermənistanın Razdan rayonu) Qaraqala kəndində anadan olub. İki il İrəvandakı Göy məsciddə dini təhsil alıb.

1918-ci ildə doğma el-obasından didərgin düşüb. Əvvəlcə Karsa köçüblər. 1920-ci ildə Borçalının Araplı kəndində, sonra Qaçağanda, Gorarxında yaşayıb. 1922-ci ildən isə Soğanlıq kəndində məskunlaşıb.

Aşıq Sadıq çox sayda ünlü sənətkar yetişdirib. Onlardan Əli Qazaxlı, Dərya Məhəmməd, Avdı Qaymaqlı, Aşıq Şəmil, Aşıq Oruc, Aşıq Kamandar, Aşıq Ülfət, Aşıq Məhəmmədəli, Aşıq Şaxsən, Aşıq Ağəli və s. sənət dərsini Aşıq Sadıqdan alıblar.

Onun haqqında kitab 2018-ci ildə Bakıda işıq üzü görüb.

Aşıq Sadıq 1965-ci il sentyabrın 4-də vəfat edib. Ünlü ozan Marneuli rayonunun Daştəpə kəndinin qəbiristanlığında doğmalarının yanında dəfn olunub.

### Bismillah

***Divani***

İbtidada bəli dedim, mən Qurana, bismillah,
Ümməti-Rəsulam ki, şükür Sübhana, bismillah.
Dərya təki mövcə gəlib, mən dönərəm hər yana,
Hər kim düşsə tez qərq olar bu ümmana, bismillah.

Qismət verən ol xudadır, pirim şah Mərdan Əli,
Xəbər al həqiqətdən, mərifətdən mənəm dolu.
Sərraf gətir qiymət qoysun, acmışam bu cəlalı,
Nakamilə duru verdim, çəkə bilməm qeyl-qalı,
Nə deyim, nə qandırım, bəs bu nadana, bismillah.

Gəl biçarə aşıq Sadıq, zəmin-asimandan deyim,
Dünyada "mənəm" deyən Təxti-Süleymandan deyim.
Yeddi il zülm çəkən Yusifi-Kənandan deyim,
Salsala qılınc çalan Əliyyi-İmandan deyim,
"İnna lillah" eşidənlər qaldı bu fəna, bismillah.

***

Ustad aşıqların söylədiklərinə görə, deyirlər ki, ünlü ozan Növrəs İman bir məsələ ilə bağlı Tiflisə gəlibmiş. O, bir az dincini almaq üçün Şeytanbazardakı draxtınlardan birinə gedir. Növrəs İman içəri girəndə divardan asılmış bir saz görür. O, da öz sazını aparıb onun yanında asır və yerini rahatlayıb çay içməyə başlayır. Bu zaman eşikdən içəri girən Aşıq Sadıq divardakı o biri sazı görüb burada yad bir aşığın olduğunu hiss edir. Və çox qəzəblənir. O, bu yad sazın sahibi ilə oxumaq istəyir. Onu meydana çağırır. Növrəs İman sakitcə ayağa durub sazını götürərək onun qarşısına çıxmaq məcburiyyətində qalır.

Aşıq Sadıq Xəstə Qasımın bağlamalarından oxuyur, İman da onun söylədiyi bağlamaların cavabını açır.

Aşıqlar bu rəvayəti bir dastan kimi danışırlar. Hər halda xalq arasında söylənən bu görüşün olub-olmamasından asılı olmayaraq onu oxuculara çatdırmağı məsləhət bildik. Şeirlərdəki əyər-əskiklərin heç birinə toxunmadıq. Aşıq Sadıq Növrəs İmana Xəstə Qasımdan bir neçə divani söyləyir. Növrəs İman da öz güclü səriştəsi

ilə onlara cavab verir. Bu iki böyük ustadın digər şeirləşməsi isə Səfil Novruzdan oxuyan Aşıq Sadığa Növrəs İman cavablandırır.

**Aşıq Sadıq:**
Hikmət mənsəbinə əyləşən alim,
Əzəl mənə - ya mən hu-dan xəbər ver.
Ərşin payasından merac evindən,
Söz nə keçdi göftü-gudan xəbər ver.

**Növrəs İman:**
Bar ilahim Cəbrayıla buyurdu,
Ya mən hu - mən kiməm tani deməkdi.
Peyğəmbərlərnən üç min kəlmə, danışdı,
Gizlin aşkar ol Sübahni deməkdi.

**Aşıq Sadıq:**
O kim idi yerə çaldı mayanı,
Su ikən bərkitdi səngi-qayanı.
Bəy altında de nöqtəni bəyanı,
Bərrü-bəhrü səngü sudan xəbər ver.

**Növrəs İman:**
Hikməti-Xudadan maya vuruldu,
Bəy bərkidi, haq nizami quruldu.
Gün hökm etdi, xak sudan duruldu,
Dağı, daşı, cismi, canı deməkdi.

**Aşıq Sadıq:**
O, kim idi zərnişanı oxudu,
Kim idi peyğəmbərə kəfən toxudu.

Adəmdən irəli siğə yoxuydu,
Vəznü-vəştü ənguhudan xəbər ver.

**Növrəs İman:**
Əzrail oxudu lövhu-mahfuzu,
Peyğəmbər kəfənin haq verdi özü.
Cabraila dedi, siğə qil bizi,
Adəm ilə o Həvvanı deməkdi.

**Aşıq Sadıq:**
O, kim idi bir məkana yetmədi,
O kim idi əyri yolu tutmadı.
O nələrdi öz haqqına çatmadı,
Hərfü həştü, siva duadan xəbər ver.

**Növrəs İman:**
Musa haqqın hesabına yetmədi,
Salman idi, əyri yolu tutmadı.
Cənnət, cəhənnəmdi, həddə çatmadı,
Aydı, gündü otuz sani deməkdi.

**Aşıq Sadıq:**
O kim idi, yetişmədi nisaba,
Kim idi, peyğəmbər oldu əsaba.
Xəstə Qasım özün yetir hesaba,
Bərrü bəhrü, səngü, sudan xəbər ver.

**Növrəs İman:**
Arif sözlərimə huş verdi sərin,
Hər yana yetirir məni gözlərim.

Coşdurur sinəmdə qəmli dəftərim,
Çox incidir bu imanı deməkdir.

**Aşıq Sadıq:**
Adəmnən Xatəmə,
Natiqi Quran mənim.
Din mənim, məzhəb mənim,
Yol mənim, ərkan mənim.
Gül mənim, bülbül mənim,
Sünbüllü reyhan mənim.
Yerdə insan, göydə qılman,
Ərişdə aslan mənim.

**Növrəs İman:**
İbtidai həm intəha,
Gərdişi dövran mənim.
Nuri-irəhmət, seyri-cənnət,
Axır əz-zaman mənim.
Din mənim, zəbur mənim,
Qabili-Habil mənim.
Heydər mənim, Səfdər mənim,
Ol Şahi Mərdan mənim.

**Aşıq Sadıq:**
Abu-atəş, xaki baddan,
Yaratdı sübhan bizi,
Altı mindən altı yüzü,
İsbat qıldı üç yüzü.
Yetmiş üçün mən biriyəm,
Altmışçün qırx səkkizi.

Beş içində altı mühəkkə,
Səkkiz yüz fərman mənim.

**Növrəs İman:**
Abu-atəş od sudur,
Xaki torpaq, bad yel,
Altı min doqquz yüzdür.
Həmdi nizam o bir il,
Sünnət əmrini niyaza,
Mimkar səkkiz yüz səbil,
Bu elimdə dərsim verib,
Xaliqim pünhan mənim.

**Aşıq Sadıq:**
Yeddi eyvan, səkkiz seyvan,
Qırx sütun, bir ləngəri.
Yeddi molla, yeddi dərviş,
Yeddi post, yeddi dəri.
Yeddi min qırxdan irəli,
Səkkiz yüz dörddən bəri.
Dir mənim, ustad mənim,
Yol mənim, ərkan mənim.

**Növrəs İman:**
Yeddi eyvan cəhənnəmdi,
Qırx sütun, ləngər Xuda.
Yeddi səhvi, yeddi səkki,
Yeddi ruz, yeddi nida,
Yeddi min qırx, keçən tarix,
Səkkiz yüz dörddü cuda,

Həm bəlasız, həm vəfasız,
Nə olsa viran mənim.

**Aşıq Sadıq:**
Bıstu həştu nisb irində,
Yar məni isbat edər.
Bir mürəkkəb oxunan,
Sureyi ayət edər.
Altı min, altı yüz,
Otuz dördü zat edər.
İncil, Zəbur, Tövrat,
Ayeyi-Quran mənim.

**Növrəs İman:**
İslamiyyət aləmində,
İyirmi səkkiz hərf var.
Xaçpərəstdə altı atıq,
Otuz dörddür aşıkar.
Bir tərəfdə nəzər qılsa,
Heydərı Düldülü sevər.
O eyndə nitqdə gəlsə,
Əfv olunan can mənim.

**Aşıq Sadıq:**
Xəstə Qasım Tikmədaşlı,
Sahibi cümlə xata.
Umudum var mən də gedim,
Taci olan meraca,
Gəlsə sahibi-dəftər,

Cümlə milləm əl-ata.
Zərrəcə günahım ola,
Əfv edər Rəhman mənim.

**Növrəs İman:**
Növrəs İman Göyçə elli,
Sidqi şahi Heydərə,
Mədh gəldi ilahidən,
Biz də yazdıq dəftərə.
Tifil ikən mədh içində,
Hökm qıldıq əjdərə,
Qorxum yoxdu qurulanda,
Ədalət divan mənim.

## Bu dərindi bu

**Aşıq Sadıq:**
Haqq əmir elədi dörd kitaba ta,
Hər kəlmə min hesabı bu dərindi bu.
124 min nəbi gəldi dünyaya,
Salavat Məhəmmədə bu dərindi bu.

**Növrəs İman:**
Mən də seyr eylədim beş xana gördüm,
Beş qapısı vardı bu dərindi bu.
Beşi açıqdı, beşdən-beşi bağladı,
Başı cavab verir bu dərindi bu.

**Aşıq Sadıq:**
Aşiq oldum o gözəlin beşinə,
Beşin atdım, beşin tutdum beşinə.

Düçar oldum bir dəryanın peşinə,
Pir mənə göstərdi bu dərindi bu.

**Növrəs İman:**
Beş alim əyləşib beş məqam üstə,
Beşi qocalıbdı, beşi növrətsə.
Beşi ayaq üstə, beşi bir dəstə,
Beşini qism eylədim bu dərindi bu.

**Aşıq Sadıq:**
Get-get öyrən ustadların birinnən,
İşim yoxdu qul oğlunun birinnən,
Sefıl Novruz dərsin alıb pirinnən,
Düşmə qərq olarsan bu dərindi bu.

**Növrəs İman:**
Beşi zənanədi, beşi mərdanə,
Beşi divanədi, beşi əfsanə.
Beşi tək İmandı, beşi hər yana,
Beşini boyladım, bu dərindi bu.



# XINDI MƏHƏMMƏD

Məmməd Gülabı oğlu Qəniyev 1896-cı ildə Borçalının Qaşmuğanlı (Böyük Muğanlı) kəndində anadan olub. 1914-cü ildə dayısı onu Ağacanın yanına gətirərək şagird qoyub. Gənclik illərindən ecazkar səsi ilə seçildiyinə görə "Borçalı bülbülü" kimi çağrılıb.

XX əsrin 30-cu illərində pantürkist damğası vurularaq həbs olunub.

Xındı Məmməd böyük vətən müharibəsində iştirak edib. O, "Kərəmi" havalarının bənzərsiz ifaçısı kimi çox məşhurlaşıb. Miskin Nəbi, Ağacan, Təhlə Novruzla çox deyişmələri var.

Xeyli aşığa ustadlıq edib. Xındı Məmməd 1968-ci il avqustun 28-də vəfat edib.

Ölümündən 33 il sonra – 2001-ci ildə Bakıda "Meydanda mərdi-mərdanə" adlı şeirlər kitabı çap olunub.

## Sən

Dəli könül qalx ayağa,
Açginən meydanı sən.
Bəyan eylə həqiqəti,
Ayatı Quranı sən.
Unutma sən poli sıratı,
Haqqı vermə nahaqqa.
At könüldən kənar eylə,
O ləyin şeytanı sən.

Adam oğlu doğru danış,
İki üzlük eyləmə.
Ərəsətdə dilin tutmaz,
Şəri böhtan söyləmə.
Talib olub bu dünyada,
Mala mülkə güvənmə.
İnsafa gəl, mürvət eylə,
Satma gəl imanı sən.

Mən qurbanam o mövlaya,
Şahı Mərdan adına.
Ağam özü bəlkə yetə,
Xındı Məmməd dadına,
Yandırarlar qiyamətdə,
Cəhənnəmin oduna.
Çağır gəlsin harayına,
Xaliqim, Sübhanı sən.

## Ya Əli

Ağır səfərimdir çağırıram səni,
Hər kəsin dadına yetən, ya Əli!
Yadullah dəstində dəri - Xeybəri,
Qaldırıb yerindən atan, ya Əli!

Möminlər dilinin sənsən əzbəri,
Çəkib qılıncını bölən Əntəri.
Yerin dayağısan, göyün ləngəri,
Meracın yolunda yatan, ya Əli!

Mən Xındı Məmmədəm hicran qəhrində,
Dərdim bir dəryadır ümman təhrində.
Yoxsuldan ötəri Bərbər şəhrində,
Özünü qul deyib satan, ya Əli!

## Tez-tez

Bismillahı, qulfallahı bilənlər,
Oxuyar kəlmeyi-suranı tez-tez.
Mən aşiğam suranı,
Oxumuşam suranı,
Yaman dərdə tuş ola,
Görüm ara vuranı.
Yaradanım, qismət eylə bəlaya,
Dostlar arasını vuranı tez-tez.

Sirr sözümü seyraqıblar biləndə,
Dəli könül ağlayanda, güləndə.
Mən aşiqəm güləndə,
Ağlayanda, güləndə,
Canmı sadağa verrəm,
Dost yanıma gələndə.
Yaradanım, qismət eylə öləndə,
Oxunsun üstümdə quranı tez-tez.

Tarix yetib əcəl camın içəndə,
Köç eyləyib ol fənadan kəçəndə.
Mən aşiqəm köçəndə,
Köç eyləyib köçəndə,
Qohum-qardaş yad olar,

Boya kəfən biçəndə.
Xındı Məmməd poli siratdan keçəndə,
Çağırginən Qadir-Sübhanı tez-tez.

## Qalmadı

İnanma ki, dünya sənə qalacaq,
Adəm ilə ol Həvvaya qalmadı.
Məhşər günü Şəfa verən hümmətə,
Səlli əla, Mustafaya qalmadı.

Mərdlər pənahıdır, şahların xası,
Dilin əzbəridir, mərdin mövlası.
Atı Duldul, qulu Qənbər, ağası,
Şahı Mərdan, Murtuzaya qalmadı.

Mətləb istə Şahı Mərdan əlindən,
Ənbiyadan, Övliyadan, Vəlidən.
Yüz iyrmi dörd min igid Nəbidən,
Nə İsaya, nə Musaya qalmadı.

Namərd odur bu dünyaya allanan,
Pərvanə tək atəşinə qalanan.
Tərəqqidə, tənəzzüldə dolanan,
Ağa, bəyə, nə gədaya qalmadı.

Xındı Məmməd etməz kimə minnəti,
Hər an söylər Ağacana rəhməti.
Ərşin, kürşün, yerin, göyün qüdrəti,
Xəmsi beşi o kimsəyə qalmadı.

## Çağır

Sığın bir Allaha, on iki imama,
Dadına xeybəri tutanı çağır.
Dünyaya gəlməmiş öz qüdrətiylə,
Ağ divin bəndini çapanı çağır.

Ağalar ağası, ağalar xası,
Dillər əzbəridi mərdin mövlası.
Atı Düldül, qul Qənbərin ağası,
Özünü bərbərdə satanı çağır.

Xındı Məmməd sığın Haqqın adına,
Hər qulu yetirən öz muradına.
Hər vədə, hər zaman sən imdadına,
Mehracın yolunda yatanı çağır.

## Dilindədir

Haqdan gələn elmi Quran,
Məhəmmədin dilindədir.
Poli siratı, adil divan,
Qiyamətin günündədir.

Haqqı çağıran qalmaz darda,
Din Məhəmməd yanmaz narda.
Haqdan gələn Zülfüqar da,
Şahı Mərdan belindədir.

Şirindir dünyanın aşı,
Sənətinə olma naşı.

Xındı Məmməd keçib yaşı,
Əlli doqquz sınnindədir.

## Ərəb atlı

Mən çağırdım imdadıma,
Gəlib çatdı ərəb atlı.
Din islamam deyən insan,
Məhəmmədə salavatdı.

Yalan işlər durulanda,
Haqqı-hesab görüləndə.
Haqq divanı qurulanda,
İman əldə xoş baratdı.

Xındı Məmməd oldun agah,
O mövlaya gətir pənah.
Qüdrətindən qadir Allah,
Cəbrayılı nur yaratdı.

## İbtida

Əzəl başdan dürr yaratdı,
Qadir Sübhan ibtida.
Ayə gəldi Məhəmmədə,
Endi Quran ifdida.
Mələk, tovuz ol Adəmə,
Gəlib səcdə etmədi,
Lənət endi ol Xudadan,
O şeytana ibtida.

Osman yazıb, cəm eylədi,
Otuz cüzvi quranı.
Xəlq eylədi cəm bəşəri,
Ol Adəmi, Həvvanı.
Adəm üçün yaratdı, bil,
Doğrudan da, dünyanı.
Səcdə etdi ol Adəmə,
Huri qılman ibtida.

Xındı Məmməd, möminləri,
Eylə dillər əzbəri.
Ərşin, Kürşün səmavətin,
Yerin, göyün, ləngəri.
Atı Duldul, qulu Qənbər,
Şahi Mərdan, ya Əli.
Pünhan olan bu dərdimə,
Eylə dərman ibtida.

## Qırmızı

Aşıq olan, qalx, ayağa,
Açaq meydan qırmızı.
Keşt eyləyək, xoş dolanaq,
Gəzək hər yan qırmızı.
Götür sazın, al dəstinə,

Dərin söylə hürfatı,
Eşidənlər nəşə alsın,
Edək dövran qırmızı.

Adam oğlu, doğru danış,
Atma, gəl, imanını.
Kənar eylə at könüldən,
Məlun olan şeytanı,
Səni yoxdan var eyləyən,
Unutma, sən, Sübhanı.
Qurulacaq ədalətdə,
Adil-divan qırmızı.

Xındı Məmməd, yalan demə,
Rəhmin gəlsin halına.
Tut orucu, qıl namazı,
Uyma dünya malına.
Bəsdir daha günün keçib,
Düzəl haqqın yoluna.
Çəkməyəsən ərəsətdə,
Ahu fəğan qırmızı.

## Qırmızı

Əzəli dürr yaranıb,
Qadır Sübhan qırmızı.
Aya, günə şölə verib,
Oldu cahan qırmızı.
Əmr oldu mələkəyə,
Səcdə etdi Adəmə,
Ayə gəldi Məhəmmədə,
Endi Quran qırmızı.

Qaldırıb bir dəstinə,
Atan babı, Xeybəri.
Atı Duldul, qulu Qənbər,
Şirin dillər əzbəri.
Ərşin, Kürsün, Səmavatın,
Yerin, göyün ləngəri,
Din islama şəfa verən,
Şahı Mərdan qırmızı.

Xındı Məmməd, nəzər eylə,
Sözün doğru sağına.
Ol İbrahim, İsmayılı,
Çəkdi Mina dağına.
Haqq yolunda qurban üçun,
Vədə qıldı oğluna.
Ol Xudadan bir qoç quzu,
Gəldi qurban qırmızı.



# AŞIQ TEYMUR

Teymur Əli oğlu Qurbanov 1906-cı ildə Qaraçöpün Düzəyrəm kəndində saza-sözə bağlı olan bir ocaqda dünyaya göz açıb.

Teymur Tiflisdə Türk pedaqoji texnikumunu bitirib, bir müddət müəllimlik edib.

Bir çox ünlü aşıqlarla görüşüb, məclislər aparıb. Hüseyn Bozalqanlı, şair Ağacan, Molla Cuma, Növrəs İmanla saz-söz sınağına çıxıb.

Aşıq Teymur 1978-ci ildə vəfat edib.

Aşıq Teymurun qoşqularından ibarət "Məndən bir nişanə qala-qalmaya..." kitabı 2000-ci ildə Bakıda işıq üzü görüb.

## Qabaqda

Yetmiş min aləmi yoxdan xəlq edən,
Haqq bilirəm ol Xudanı qabaqda.
Dinin pərgəridi, mərdin dirəyi,
Mərd yaradıb o İmranı qabaqda.

Cəbrayıl vəhy gətdi ol İrəsula,
Buyurdu, min Burağı düşkünən yola.
Təklif edib səni Əsiri-Mövla,
Əziz bildi Mustafanı qabaqda.

İnan Suliddinə suval alarlar,
Günahkar kimsəyə gürzü çalarlar.

Dar məzarda yaman günə salarlar,
Ədalətdi Haqq divanı qabaqda.

Haqq bil İrəsulu, həmin övladın,
Çağır dil əzbərin şahların şahın.
Mömin olan görməz cəhənnəm odun,
Müqəssirlər nara yanar qabaqda.

Teymur, sən də bel bağlama dünyaya,
Çəkdiyin əməllər gedəcək zaya.
Qəbir sıxar, torpaq dolar əzaya,
Cəsəd görər bu əzanı qabaqda.

## Vəlidi, Vəli

Şahi-Mərdan, Şirin-Yəzdan la fəta,
Rəsul sağlığında Vəlidi, Vəli.
Sirri-xəfiyyədi, heç kimsə bilməz,
Dünya varlığına Vəlidi, Vəli.

Ağ devin bəndini tifilkən çatdı,
Məğribnən Məşriqə əlin uzatdı.
Hökm etdi, göydəki günü yubatdı,
Sahib karlığında Vəlidi, Vəli.

İnsi-cinni küllü-aləm rəhbəri,
Məhəmməd dininin sənsən pərgarı.
Teymur, dil-əzbər et Şahi-Heydəri,
Hökmdarlığında Vəlidi, Vəli.

## İbtida

Cəbrayıla ustad oldu,
Şahi-Mərdan ibtida.
Neçə il ləl yesir qaldı,
Cümlə hər yan ibtida.
Neçə şeydən qərar tutub,
Cəsədinə can gəldi.
Yarandı dünya üzünə,
Bəni-insan ibtida.

Neçə il zindanda qaldı,
Xani-zəmin sərbəsər.
Nə günündə gün dedi o,
Dağı-daşı tutdu qərar.
Gün çıxdı ol qəsrdən,
Hər yan oldu laləzar.
Şəfəqindən şölə buldu,
Cümlə-cahan ibtida.

O kimiydi, qədəm qoydu,
Çıxdı ərşi-əlaya?
Kimləriydi səf-səf olub,
Durdular tamaşaya?
Hansı vaxt günəş çıxıb,
"Dur" dedi ulduza, aya?
Ay günəşdən gərdiş vurdu,
Etdi dövran ibtida.

Yüz iyirmi dörd min nəbi,
Gəldi-getdi dünyada.

Hansı ayə, hansı gündə,
Gəldi ol Məhəmmədə?
Cəbrayıl da qanad çaldı,
Ərişdən gəldi səda.
Həzrəti-Osman cəm eylədi,
Yazdı Quran ibtida.

Teymur sən də Sidqin bağla,
Ol şahi-əl-Heydərə.
Ətəyindən tutan kəsin,
Cəsədi yanmaz nara.
Otuz səkkiz min altı yüz ayə,
Cəm oldu yüz on dörd sura.
Gəldi Məhəmməd şaynına,
Dini-iman ibtida.

## Ya Məhəmməd Mustafa

İki dünyanın şahısan,
Ya Məhəmməd Mustafa.
Aləmlərin pənahısan,
Ya Məhəmməd Mustafa.
Özün yaranmazdan əvvəl,
Nurun gəldi dünyaya,
Dahilərdən sən dahisən,
Ya Məhəmməd Mustafa.

Haqq-tala səni yaratdı,
Sultanların sultanı.
Sirri-Sübhan əziz bildi,

Oldun mehrac mehmanı.
Özü sana bəxş eylədi,
Otuz cüzi Quranı.
Ayət kəlam ilahısan,
Ya Məhəmməd Mustafa.

İmansız imana gəldi,
Görəndə möcüzatın.
Ayı iki para elədin,
Göstərdin əsil zatın.
Özünsən şəfaqətçi,
Məhşərdə qiyamətin.
İrahlıllar[6] irahısan,
Ya Məhəmməd Mustafa.

Sən minəndə rəf-rəf atı,
Nura qərq oldu aləm.
İsmini bəyan eylədi,
İbtida lohu qələm.
İlahıdan təklif oldu,
Götürdün qara aləm.
Kəbeyi-beytullahsan,
Ya Məhəmməd Mustafa.

Gecə-gündüz, ya Məhəmməd,
Teymurun dil əzbərisən.
Ey Xudanın həbibi, sən,
Könüllər pərgərisən.
Ənbiyalar, övliyalar,

---

[6] Yolçular

Şeyxlər rəhbərisən.
İslamın qibləgahısan,
Ya Məhəmməd Mustafa.

## Əli

İbtidai-Cəbrayıla sən oldun ustad Əli,
Darda qalan səni çağırar, istəyər imdad Əli.
Məleykələr səf-səf durub sənə "əhsən" dedilər,
Dağıdıb Xeybər qalasın, eylədin abad Əli.

Əzəl dünya xəlq olundu, isminə tutdu qərar,
Şaynına ayə yazıldı, illə-fəta sərbəsər.
Ənbiyalar, övliyalar, ərənlərə sərvər,
Kökmüzdən Şiri Xuda, o abi-həyat Əli.

Yetmiş iki millət üçün haqqın rəhbəri sənsən,
Qəzənfər, ya Seyfullah, dinin pərgəri sənsən.
Teymurun dil əzbəri, şahların şahı sənsən,
Qul deyib, bərbərə getdin, eylədin abad Əli.

## Beş

Cəmi-Cabbar qüdrətindən,
Mana verib fəhmi beş.
Cəfakeşdi, bu dünyada,
Çəkəcəkdi rəhmi beş.
Cəm oldu yüz on dörd sura,
İslam oldu aşikar.
Neçə kəlmə insan üçün,
Yazılıbdı nəzmi beş.

Şiri-Yəzdan əzəl vurdu,
Zülfüqarı Əntərə.
Hər iki cahanın açarı,
Tapşırıldı Heydərə.
Kəlmə-kəlmə ayə gəldi,
Səbt olundu dəftərə.
O sirdən halı olmadım,
Oxunurmu nəhmi beş?

Çox Süleyman fani dünya,
Saldı xanı-turaba.
Bir gün olar, nəkrayıllar,
Baxar haqqı-hesaba.
Yazıq Teymur günahkardı,
Üzüqara dünyada.
Qadir Allah şəfaqətçi,
Özün eylə rəhmi beş.

## Ya Əli

Ya şahların şahı, çağırram səni,
Qurbanam adına, gəl-gəl, ya Əli!
Müşkülə düşənin sənsən pənahı,
Müşküllər dadına gəl-gəl, ya Əli!

Bu gərdişin açıb-bağlayanısan,
Özün hifz eyləyib-saxlayanısan.
Zindanda qalanın yoxlayanısan,
Yetiş fəryadına, gəl-gəl, ya Əli!

Aləmlər sultanı, ya şahi-kərəm,
Gah ağlaram, gah boynumu bükərəm,
İmam Hüseyn müsibətin çəkərəm,
Yanıram oduna, gəl-gəl, ya Əli!

Kim tanımır Şahi-Mərdan Əlini,
Gözlüyənlər yoxdu Məhdi yolunu.
Əhli-islam Məhəmmədin qulunu,
Salginən yadına, gəl-gəl, ya Əli!

Həsrətəm görməyə, nuri-didaram,
Çəkərəm qəlbimdə, çox intizaram.
Mən üzüqarayam, həm günahkaram,
Teymur imdadına gəl-gəl, ya Əli!



# AŞIQ ƏMRAH

Əmrah Paşa oğlu Gülməmmədov 1908-ci ildə Borçalının Kürüstü Kəpənəkçi kəndində anadan olub. İki il mollaxanada oxuyub. Aşıq Əmrah sənətin sirlərini dövrünün tanınmış sənətkarı Məsim Bəyazidlidən öyrənib. Böyük vətən müharibəsində iştirak edib. Bir müddət müxtəlif vəzifələrdə çalışıb.

Azərbaycan aşıqlarının III (1961) və IV (1984) qurultaylarında iştirak edib. Ozan aşıq sənətində onun ən böyük xidmətlərindən biri sazı təkmilləşdirərək 11 simli etməsidir.

Çox sayda şagird yetişdirib. Bir neçə saz havasının yaradıcısıdır.

Aşıq Əmrah 1987-ci il martın 11-də vəfat edib. Son illərdə yaşadığı Axlı-Mahmudlu kəndində dəfn olunub.

## Əlindədir

Ay ariflər, siz də bilin,
Əmir haqqın əlindədir.
Kim Allahı çox sevirsə,
Şəhadəti dilindədir.

O şir donlu Cənab Əli,
Mənim sevdicəyim Vəli.
Dar günü dadına gəli,
Başım onun yolundadı.

Kim ki, tanıyar Allahı,
Əzbər eylər bismillahı.
“Ələhəmı”, “Qülfallahı”,
Şəfaəti nurundadı.

Xeybər qalasını qıran,
Əntərə zərbələr vuran.
Kövsər bulağında duran,
Zülfiqarı belindədir.

Əmrahın ciyər parası,
Dərdi göylə yer arası,
Hüseynin bədən yarası,
Kərbəlanın çölündədi.



# ALXAN QARAYAZILI

Alxan Qurban oğlu Ömərov 1909-cu il iyun ayının 25-də Qarayazının Kosalı kəndində anadan olub. O, kiçik yaşlarında elin mollası Hacı Vəli Omar oğlundan mədrəsədə dini təhsil alıb. Saz çalmağı aşıq Əmrahın atası Paşa kişidən öyrənib. Məşhur aşıqlarla məclislər keçirib. 1937-ci ilin sərt küləkləri Aşıq Alxandan da yan keçməyib, 7 il həbsdə yatıb, Orta Asiyaya sürgün edilib.

Qoşquları kitab şəklində çap olunub. Aşıq Alxan xeyli sayda gəncə sənətin sirlərini öyrədib. Aslan Kosalı, Aşıq Cahandar, Aşıq Hələbi, Aşıq Abbas, Aşıq Ömər bu ünlü sənətkardan dərs alıb.

Aşıq Alxan Qarayazılı 1998-ci il iyul ayının 14-də vəfat edib.

## Yedirmədimi

Şeytanı, İblisi o, nəhlətullah,
Buğdanı Həvvaya yedirmədimi?
Məst etdi behiştdə o, xətakarı,
Özünə itaət etdirmədimi?

Bir dənə buğdaya eylədi tamah,
Nə qədər qazandı dünyada günah.
Sevmədi bu işi o qədir Allah,
Behiştdən kənara atdırmadımı?

Çoxları biləmməz nədi şəriyət,
Neçədi Quranda yazılan ayət?
Ay Alxan, gəl eylə haqqa ibadət,
İbadətkar behişdə oturmadımı?

## De nədi

Qırx səkkiz karvandı, dörd də bəzirgan,
Bir körpüdən gəlir keçir, de nədi?
Bir quşum var, iyirmi dörd balası,
Pərvaz edib bir-bir uçur, de nədi?

Qəlbimin ataşı yandırır dağı,
Hər dəmdə gəşt edir bülbüllü bağı.
Bir qala içində iki çırağı,
Gündüz yanır, gecə keçir, de nədi?

Elim Qarayazı, adımdı Alxan,
Endirər başına qara bir duman.
Haqq nuru yaradıb iki pəhləvan,
Hansı gəlir, hansı qaçar, de nədi?

## Endirən fələk

Üzbə-üz durasan bir xəbər alam,
Cəmşidi taxtından endirən fələk.
Mərdləri göndərən zülmət dağına,
Zalımın çırağın yandıran fələk.

Neçə əyyam, neçə dövran görmüşəm,
Viran bağlar, viran gülşən görmüşəm.
Hər nə ki, görmüşəm böhtan görmüşəm,
Namərdi səmaya qaldıran fələk.

## Əgər

Qardaş qardaşı öldürməzdi olmasa şeytan əgər,
İslam əhli olardımı enməsə Quran əgər?
Günah ərşə qalxar haqqı salar nəzərindən,
Bəd əmələ tövbə deyib olmasan peşman əgər.

Bu dünyanın hər sirrini Rəsulum bildi haman,
Hər dərdə dərman verən haqsan, Qədr-Sübhan!
Kərbalada dava düşdü sellər kimi axdı alqan,
Dinimiz əldən gedərdi olmasa Yəzdan əgər.

Qarayazılı Aşıq Alxan, çox da uyma cahana,
Müxənnətə bel bağlama,aldatmasın zəmana.
Düz çıxdı ilqarına, həm də əhdi-peymana,
İbrahim oğlun kəsərdi gəlməsə qurban əgər.

## Qalmasın

Adilsən Allahsan, haqqı-divansan,
Tərlanın ovlağı sara qalmasın.
Mərdin işi müşküllərə duşməsin,
Ürək sözü beyilqara qalmasın.

Pozulmasın mərdin şöhrəti-şanı,
Açılsın üzünə haqqın divanı.
Nahaqdan axmasın bəndənin qanı,
Gözəl dövran zülmkara qalmasın.

Ay Alxan, qəlbini Xudaya bağla,
Nə şeytana, nə dünyaya bel bağla.
Sidqini Qurana, ayəyə bağla,
Ərəsətdə cəsət nara qalmasın.



# TƏHLƏ NOVRUZ

Novruz Şahismayıl oğlu Cəfərov 1912-ci il martın 22-də Qarayazının Qaratəhlə kəndində anadan olub. Uşaqlıq illəri Sovet hakimiyyətinin gəldiyi dövrə təsadüf etdiyindən ibtidai təhsil ala bilməyib. 1937-ci ildə bəy əsilliyi bəhanə gətirilərək atası Şahismayıl Rusiyanın Orenburq şəhərinə sürgün olunub və orada da güllələnib.

1944-cü ildə Novruz “xalq düşməni”nin oğlu kimi həbs edilərək on il cəza alıb. Çoxlu qoşquları və bir neçə dastanı var. 1991-ci ildə Tiflisdə “Təzə bayram günləri” adlı şeirlər kitabı çap olunub. Tam külliyyatı 2001-ci ildə “Dağlar əyil, yar görünsün” adlı kitabda toplanaraq Bakıda çap olunub.

Təhlə Novruz 1960-cı il oktyabrın 11-də vəfat edib.

## Sən

Ey xəliqim, xəlq eylədin,
Nə əcəb dünyanı sən.
Bir kafi-nun deməyinlə,
Qələmi löhəni sən.
Qələm yazdı, qərar tutdu,
Ərşi-gürşü cabeca.[7]
Xəlq eylədin bəşəriyyəti,
Torpaqdan insanı sən.

Nun – Nəbidi Məhəmmədə,
Gəlibdi feyzi-əzəl.
Kaf-kəlmeyi-şəhadətdi,
Yəni hökmü-ləmyəzəl.
Yeddi qat göy, yeddi qat yer,

[7] Yerbəyer

Yoxdan etdin istimal.
Yaratdın ondan əvvəl,
Cənnətəl-məvani sən.

Qürrələnmə dəli könül,
Çağır mərdin pirini.
Düşməninə tuş eyləyər,
Xədəngini, tirini.
Xaliq özü sirr açmayıb,
Mən açmaram sirrini.
Şair Novruz, çox götürmə,
Günahı, gümanı sən.

## Baş endirir

Gecə-gündüz mömin kəslər,
Sübhana baş endirir.
Şahlar-şahın görən kəslər,
Meydana baş endirir.
Atı Düldül, qulu Qənbər,
Budur gəlir qabaqda,
Hər kim görsə Zülfüqarı,
Mərdanə baş endirir.

Darda çağır, ya Əli de,
Odur dillər əzbəri.
Gedəndə cəngə dəstində,
Parıldardı xəncəri.
Kim baş əyməz Məhəmmədə,
O çəkərdi düsəri.
Səri səcdə eylər xakə,
Hər yana baş endirir.

Kimi alçaq, kimi yuca –
Bunu Yaradan bilir.
Nə gəlsə insan başına,
Onu da Sübhan bilir.
Novruz tutub ətəyindən,
Ol Şah-Mərdan bilir.

## Mərd

Gün deyibdi kainata,
Ol kərəmin kanı mərd.
Nəzər qıldı bir gövhərə,
Yaratdı imkanı mərd.
Əmr olundu mələkxəttat,
Təyyar etsin aləmi.
Qüdrətindən cana gəldi,
O tapdı ərkanı mərd.

Süvar oldu bir naqəyə,
Behiştə qılsın iqdam.
Qüdrətindən ilham alıb,
Fəxr edərdi damadəm.
Səfi üçün ol mələklər,
Etdi böyük ehtiram.
Əzazil imtina qıldı,
İtirdi imkanı mərd.

Dolandı xeyli zamanə,
Adəmə kin bəslədi.
Tutuban ədavətini,
Qüdrəti min bəslədi.
Nə haqqa boynunu əydi,
Nə də ki, din bəslədi:
Şair Novnız bu məluna,
De, lənət şeytana, mərd.

## Qırmızı

Kərbəlada axdı qanlar,
Oldu meydan qırmızı.
Əntərə çaldı Zülfüqar,
Şahı-Mərdan qırmızı.
Yetər darda imdadıma,
Məhəmməd-əl-Mustafa,
Sönməz çırağım dünyada,
Yansa haqdan qırmızı.

Bu kainat qara geyər,
Şəmsi-qəmər olmasa,
Bəndə-bəndəyə nə eylər,
Fələk gözdən salmasa.
Çağıraram dar günümdə,
Şahı-Mərdan gəlməzsə,
Ab söndürməz atəşimi,
Yanar oddan qırmızı.

Qismət olsa bu Novruza,
Abı-kövsərdən içər.
Şahımərdan dada gəlsə,
O siratdan tez keçər.
El qədrini bilməyən kəs,
El gözündən tez düşər.
Əvvəl utanan üz olar,
Tənə sözdən qırmızı.

## Əzəl

Ərş üzündən yerə endi,
Haqqın kövhər-kəlamı.
“Quranı-şərif”də yazdı,
Başda bismillah əzəl.
Darda çatar dadına, heç,
Daməndə qoymaz səni;
Çağır gəlsin, yetər dada
Bir adı Allah əzəl!

Haqqın min bir adı vardır,
Mustafadır bir özü.
Məhəmmədə vəhy gəldi ki,
Məxluqa yaysın sözü.
Özü nurdan yaranmışdır,
Yoxdan var edib bizi.
Canı-təni verən Odur,
Özüdür Cəlləllah əzəl.

Yetiş dada şahlar-şahı,
Odur gəlir qabaqda.
Rəsul özü ərş üzündə
Şahımı saldı yada.

Qovma məni qulluq edim,
Sənin kimi ustada.
Oldu dinin səcdəgahı,
Ol beytullah əzəl.

Məhəmməd-əl Mustafanın,
İsmi pakdı, gözəldi.
Kəlmə-kəlmə gələn Quran,
İnci kimi düzüldü.
Ərş üzündən yerə endi,
Yer üstündə yazıldı.
Haqq yola dəlalət eylər,
Ol Kəlamullah əzəl.

Şair Novruz eşq əlindən
Oda düşdü, qalandı.
Ol xudanın min bir adı
Mömün kəsçün tamamdı.
On bir oğlu ilə Əli
Bil ki, bir haqq imamdı.
Unutmam şahlar-şahını
Ölsəm də billah əzəl.

## Özü birdir, adı min bir

Özü birdir, adı minbir
Ərşdə sübhan durur.
Haqq göndərmiş Məhəmmədə
Dəstində Quran durur.
Əli dəstində Zülfüqar
Yarı böldü əntəri,
Yetiş dada qadir Allah,
Qarşıda meydan durur.

Xızır İlyas içdi abı,
İsgəndərə çatmadı.
Fikri-xəyal aldı onu,
Xaba uyub yatmadı.
Həvva ilə Adəm ata
Haqq yolunu tutmadı.
Yeddi cənnət səkkiz edən
Ol bağı-rizvan durur.

Novruz deyər düz dolandım,
İtirmədim imanı.
Dünya Süleyman mülküdü,
İndi Süleyman hanı?!
Duyan kəslər titrəşirdi
İsgəndəri, Daranı.
Yuyub qəssəl, büküb ağa,
Qarşıda üryan durur.

## Ya dedim Leysa yetirdi

Ya dedim Leysa yetirdi,
Yəni bir həyyi-Qafur.
Gün deyəndə kainata
Ol kərəmi-zülu nur.
Günəş doğdu ab içindən,
Cahan oldu laləzar.
Xidmət üçün Cəbraili,
Qıldı əmrində məmur.

Abi-atəş, xaki-baddan
Bina qoydu ol nərə.
Xidmət üçün huri-qılman
Endi ərşdən yerə.
Ol adəmi-Səfiyullah
Əyləşərək minbərə.
Salam etdi ya Qəyyumi,
Ya Qəhuri, ya Təhur.

Kərəm kanı nəzər qıldı,
Cahan oldu ixtira.
Yüz iyirmi dörd min nəbi
Mürsəl xatəməl-vara.
Novruz, fəth oldu cahanda,
Neçə Şahi-sərdara.
Ya Rüstəmdi, ya qəhrəman.
Əfrasiyab, Ləngəhur.

## Sorağındayam

Piri-imamım Əlidi,
Əlan növrağındayam.
Günbəgündən pər açıram,
Şahın marağındayam.
Şüasından şölə buldum,
Şöhrət saldım aləmə.
Şərafətdə şamil oldum,
Şərmi sorağındayam.

Ərş-əladan nazil oldu,
Cəbrail gətdi peyğam.
Taha dedi, ərz elədi,
Rəsula qıldı salam.
Çoxu iblisə qom olub,
İtib Qasimi-nakam.
Əlac eylə qəzənfərfər,
Hicri fərağındayam.

Tiflis mənim uyezdimdir,
Qarayazı mahalım.
Elim Təhlə dıyarıdı,
Nəzmi-şer xəyalım.
Öz adımdı Şair Novruz,
Alməmmətdi binalım.



# HÜSEYN SARAÇLI

Hüseyn Qurban oğlu Həsənov 1916-cı ildə Borçalının Saraçlı kəndində anadan olub. İlk dəfə öz həmyerlisi Aşıq İsmayıla şagird olub, sonra Quşçu İbrahimdən bu sənətin sirlərini öyrənib, şair Nəbi və Sarvan Bayram (Faxralı kəndi) kimi saz-söz xridarlarının yanında püxtələşib.

O, Gürcüstanın "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Ustadın ilk kitabı 1992-ci ildə Bakıda işıq üzü görüb.

Hüseyn Saraçlı aşıqlıq sənətinə 14 şagird bəxş edib.

Anadan olmasının 100 illiyi münasibətiylə haqqında iki kitab çap olunub. Aşıq Hüseyn Saraçlı 1987-ci ildə vəfat edib. Doğma kəndində büstü qoyulub.

## Deyişmə

**Hüseyn Saraçlı:**
Məndən salam olsun Sərraf Qasıma,
Söylə, əzəl-əzəl nə oldu isbat, Qaziyəl-hacat.
Mövlam nə yaratdı, bir ismi kimdi?
Ay nədən yarandı, bir ismi həyat, Küllü kainat.

**Sərraf Qasım:**
Al cavabın verim, Saraçlı Hüseyn,
Əzəl ondan başqa, la oldu isbat,
Qaziyəl hacat.

Mövlam nur yaratdı, ismi Məhəmməd,
Onnan da yarandı bir ismi həyat,
Küllü kainat.

**Hüseyn Saraçlı:**
Bəs kim dedi gözəllərdən gözələm,
Özüm nəyəm, nuri kimdən əzələm.
Neçəynən bəzəndi, quruldu aləm?
İbtida nə zaman oldu minacat, kim oldu ustad.

**Sərraf Qasım:**
O nur dedi, gözəllərdən gözələm,
Özüm haqqam, nur Əhməddən əzələm.
Beşinən bəzəndi, quruldu aləm,
Aləmi ervahda oldu minacat,
Haqq oldu ustad.

**Hüseyn Saraçlı:**
Saraçlı Hüseynəm, o nə Qurandı,
Kimə nazil oldu, o nə Qurandı.
Hansı raha gəldi, o nə qurandı,
Ay nədən yaranmış, bir nə rəngli at?
Açdı qol-qanad.

**Sərraf Qasım:**
Sərraf Qasım deyər dəlil Qurandı,
Məhəmmədə nazil, dəlil Qurandı.
Mehrac raha gəldi, dəlil Qurandı,

Şimşəkdən yaranmış bir göy rəngli at,
Açdı qol-qanad.

***

**Sərraf Qasım:**
Məndən salam sən Saraçlı Hüseynə,
Neçə məqamdadır o ismi əta.
Mən aşiq, ismi əta,
Kim etdi ismi əta?
İbtida əzəl kimi,
Yaratdı ismi əta
Nədən hasil, əlif nə, bey nə, sey nə,
Nə dedi katibə o, ismi əta.?

**Saraçlı Hüseyn:**
Məndən salam olsun Sərraf Qasıma,
On mərd məqamdadır o ismi əta.
Mən aşiq, ismi əta,
Haqq etdi ismi əta.
İbtida Məhəmmədi,
Yaratdı ismi əta.
Nurdan hasil, əlif bey bir, sey doğru,
Yaz dedi katibə o, ismi əta.

**Sərraf Qasım:**
Neçiyə demisən, neçə min əzəl,
Neçə min axırdı neçə min əzəl?
Aşiq neçə min əzəl,
Vardı neçə min əzəl?
Əfsəllərdən əfsəldi,
Əzəl, neçə min əzəl?

Mürşüdlüyə çatdı, neçə min əzəl,
Neçə min, neçə yüz, o ismi əta.

**Hüseyn Saraçlı:**
Mən bir demişəm, bir min, bir əzəl,
Bir min, bir axırdı, bir min, bir əzəl.
Aşiq bir min, bir əzəl,
Vardı bir min, bir əzəl.
Əfsəllərdən əfsəldi,
Əzəl, bir min, bir əzəl.
Mürşüdlüyə çatdı bir min, bir əzəl,
Ondörd min, altı yüz o, ismi əta.

**Sərraf Qasım:**
Mən, Sərraf Qasımam, öz rəf-rəfinə,
Bəs kim qanad verdi, öz rəf-rəfinə
Mən aşiq öz rəfinə,
Nə dedi, öz rəfinə.
Nə vaxtdan mehtəridi,
Hansı şəxs, öz rəfinə.
Gətirdi, kim mindi, öz rəf-rəfinə,
Haraya gedəndə o, ismi əta.

**Hüseyn Saraçlı:**
Bax, Saraçlı Hüseyn, öz rəf-rəfinə,
Mövlam qanad verdi, öz rəf-rəfinə.
Mən aşiq, öz rəfinə,
Get dedi öz rəfinə.
Əzəldən mehtəridi,
Cəbrayıl öz rəfinə.

Gətirdi, o mindi öz rəf-rəfinə,
Mehraca gedəndə o ismi əta.

***

**Hüseyn Saraçlı:**
Səlli əla, kimdi söylə,
Əfsəldi-mürsəldi o.
Sərraf Qasım, sən cavab ver,
Harada sevildi o.
O, damət, neçə sinnində,
Nəyə çatdı lütfü pak,
Əvəl nəyik, bildi o.

**Sərraf Qasım:**
Səlli əla Muhəmməddi,
Əfsəldi, mürsəldi o.
Cavab al, Saraçlı Hüseyn,
Dərgahda sevildi o.
O damət də qırx sinnində,
Çatdı peyğəmbərliyə.
Hərrə dağında mübarək,
Əzəl vəhyi bildi o.

**Hüseyn Saraçlı:**
O nədi ki, məqamında,
Hər gün nəyə nun deyər.
Öz, məhdində, kim bəsləyər,
Mövluduna can deyər.
Harda xitab edər ona,
Harda Gülüstan deyər.
Neçə açar, neçə solmaz,
Nə yanında güldü o.

**Sərraf Qasım:**
Həqiqətdir məqamında,
Həqiqətə nun deyər.
Öz, məhdində bəslər mövlam,
Mövluduna can deyər.
Ərşdə xitab edər ona,
Orda Gülüstan deyər.
Minbir açar, iki solmaz,
Haqq yanında güldü o.

**Hüseyn Saraçlı:**
Saraçlı Hüseynə bəyan,
Eylə ki, nədir əla.
Kimə olub, kim müntəzir,
Kimdi ona mübtəla.
Aləmi ərvahdan düşüb,
O hansı doğru yolda.
Bəs mənakı hansı yerdi,
Neçə bürc mənzildi o.

**Sərraf Qasım:**
Sərraf Qasım edər bəyan,
Sübhanı Qadir əla.
Məhəmmədə, o müntəzir,
Odur ona mübtəla.
Aləmi-ərvahdan düşüb,
Sey sabit doğru yola.
Məkanı məscidi ehram,
On beş bürc mənzildi o.



# İSLAM ƏRDƏNƏR

İslam İsə oğlu Ərdənər 1921-ci ildə Türkiyənin Kars vilayətindəki Kümbətli (Ladıkars) kəndində anadan olub. Onun atası əslən dağ Borçalısının Soyuqbulaq kəndindən 1919-cu ildə gedib.

İslam İsə oğlu Ərdənər türk dünyasının ünlü ozanı Aşıq Şenliyin oğlu Aşıq Qasımdan aşıqlığın sirlərini tam öyrənib.

Aşıq İslam 1972-ci ildə Marneuli rayonunun Keşəli kəndində yaşayan doğma bacısı Anaxanımla görüşə gələ bilib. İki aya yaxın Borçalıda qalan İslam Ərdənər bir çox ünlü aşıqlarla görüşüb.

Ustadın şeirlər kitabı Bakıda nəşr olunub.

Aşıq İslam Ərdənər 1995-ci ildə vəfat edib.

## Gələn

Halıma rəhm eyləyib, dərdə dərmandı gələn,
Mənim bu sınıq könlümə məlhəm sarandı gələn.
Səxavətdə Hatəm-Tayi kimsə tutan olmadı,
Çün eşidib dar günümü, yola rəvandır gələn.

Ağıl yetməz ol mövlanın əlifinə, sininə,
Cümlə yaranan möhtacdı aləmin Rəbbisinə.
Əzəl Allah, gümanım var Nəbilər Nəbisinə,
Hümmətinə imdad üçün əziz yarandır gələn.

Nə ölçüdə, biləmmədim bu eşqin həvəsini,
Sayla təslim edib mövlam hər qulun nəfəsini.
Aşıq İslam, belə gördüm dünyanın vəfasını,
Aqibət ömür şəhrinə tüpü borandır gələn.

## Yaradan

Yeri-göyü, ərşi-gürşü, ümmanları yaradan,
Eşqin ilə zikrullaha dalanları yaradan.
Məni eldən, eli məndən uzaq etmə dünyada,
Gündə beş vaxt namazını qılanları yaradan.

Sən yaratdın, el ucaltdı, dastan oldum dillərə,
O Şenliyi nəqş elədim könüldən könüllərə.
Arzum budur miras qalsın nəsildən nəsillərə,
Qətrələrdən ümman kimi dolanları yaradan.

Özüm ölsəm adım ölməz, sürər gedər hər zaman,
Mənim elim vəfalıdı, yad eyləyər bir zaman.
Aşıq İslam ölür gedər, bəlli olmaz yer-məkan,
Qonşu eylə savabı çox olanları yaradan.

***Aşıq Murad Yıldız Qaraxanlı ilə***
***İslam Ərdənərin deyişməsi***

## Allah

**Qaraxanlı:**

Mən heç səndən ayrılmazam ulu Sübhanım Allah,
Etiqadım sana bağlı elmi gümanım Allah.
Həm rəhimsən, həm kərimsən aləmləri yaradan,
Cümlə dərdə şəfa verən təbib loğmanım Allah.

**Ərdənər:**
Sidq ilə sənə sığındım əmri fərmanım Allah,
Sən yaratdın biz yarandıq dərdə dərmanım Allah.
Yüz iyirmi dörd min nəbilər gəldi keçdi cahanda,
Şəfaətçi ya Məhəmməd nuru sultanım Allah.

**Qaraxanlı:**
Sən yaratdın kainatın ərşi-gürşü bir tamam,
Cansızları cana gətdin yaman-yaxşı bir tamam.
Üç yüz altmış altı günü yazı-qışı bir tamam,
Gecə-gündüz fikrim sənsən zikri-lisanım Allah.

**Ərdənər:**
Sən yaratdın aləmləri var oldu başdanbaşa,
Hökm ilə qərar buyurdun ay-ulduza günəşə.
Sübhanəkə surəsini inzal eylədin ərşə,
Ayəti kəlmə içində elmi Quranım Allah.

**Qaraxanlı:**
Döşənmişəm dərgahına ağlaram gecə-gündüz,
Sanki məhşəri divanda Ərasata gəldik biz.
Qul eylə qapına gəlmiş qəbul et Murad Yıldız,
Hər arzumun diləyisən sirri pünhanım Allah.

**Ərdənər:**
Bu eşqin atəşi məndə cismimə düşüb yanar,
Sanki şama pərvanədir, durmaz alışıb dönər.
Hüzuru, haqqı payında aşıq İslam Ərdənər,
İki cahanın sultanı dinim-imanım Allah.



# AŞIQ İSGƏNDƏR AĞBABALI

İsgəndər Bəxtiyar oğlu Gülməmmədov 1925-ci ildə Dağ Borçalısının Ağbaba bölgəsindəki Ellər kəndində anadan olub. Kənddəki Güllüoğullar nəslindəndir.

İsgəndər bölgənin ünlü sənətkarlarından olan Aşıq Nəsibə qulluq etmişdir. Aşıq İsgəndər təkcə dağlı-aranlı Borçalıda yox, tarixi türk torpaqlarının əksəriyyətində ustad bir sənətkar kimi tanınmışdır. Aşıq İsgəndər bir neçə aşığa ustadlıq etmişdir. Şeirləri ayrıca kitab şəklində ölümündən sonra çap edilmişdir. Dədə-baba torpaqlarından didərgin düşən Aşıq İsgəndər 24 aprel 1992-ci ildə - ömrünün sonlarında yaşadığı Şəmkirdə vəfat etmiş, orada da dəfn olunmuşdur.

## Hanı

Birinci yarandı Adəmlə Həvva,
Adları söylənir, özləri hanı?
Cəmşidə tas qurdu eylədi dava,
Adları söylənir, özləri hanı?

Qılıncı ki çəkdi Həzrəti Əli,
Mən sözü haqq deyim, siz deyin bəli.
O Həzrət Abbasın kəsilən əli,
Adları söylənir, özləri hanı?

Tamah İsgəndəri zülmata atdı,
Sultan Süleyman da qalmadı, batdı.
Əyyub yara töküb il boyu yatdı,
Adları söylənir, özləri hanı?

Kəsdi Məhəmmədin şir qabağını,
Nuh peyğəmbər tapdı Ağrı dağını.
Yezid tutdu imamların sağını,
Adları söylənir, özləri hanı?

İbrahimi necə atdılar oda,
Nuhun gəmisiydi çox gəzdi suda.
İsgəndər bunları salanda yada,
Adları söylənir, özləri hanı?



# AŞIQ MƏHƏMMƏD QASIMLI

Məhəmməd Mürşüd oğlu İmanov 1928-ci ildə Borçalının Qasımlı kəndində anadan olmuşdur. Ailənin ağırlığı Məhəmməd lap körpə olanda onun üzərinə düşmüşdür.

Məhəmməd Mürşüd oğlu Borçalının azman sənətkarı Xındı Məmmədə şagirdlik etmişdir. Aşıq şeiri üslubunda xeyli qoşquları var. Aşıq Məhəmməd 1992-ci ildə vəfat etmişdir.

## İstərəm

Sən bütün bəşərə nicat verənsən,
Mən də nicatımı Səndən istərəm.
Peyğəmbər kəfənin nurda görənsən,
Mən də köməyimi Səndən istərəm.

Bülbül intizardı bahara-yaza,
Deyən həsrət qalam sədəfli saza.
Zalım cəllad bıçaq çəkir boğaza,
Mən də köməyimi Səndən istərəm.

Məhəmməd, imdada çağır Allahı,
Yetişsin dadma O qiblə pənahı,
Bu yetim məzluma çəkdirmə ahı,
Mən də köməyimi Səndən istərəm.



# ASLAN KOSALI

Aslan Musa oğlu Mirzəyev 1929-cu ildə Qarayazı (Qardabani) mahalının Kosalı kəndində Qıllözdülər soyunun Tağarlı ocağında anadan olub.

Ustadı ünlü ozan Alxan Qarayazılı olub. 1954-cü ildən müstəqil aşıqlıq edib.

2009-cu ildə Bakıda "Aşıq Aslanın ozan dünyası" adlı şeirlər kitabı nəşr olunub. 2012-ci ildə Azərbaycan folklor külliyyatı çoxcildliyində onun söylədiyi on bir dastan çap olunub. 2001-ci ildə Gürcüstan prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilib.

O, Azərbaycan Aşıqlarının IV (1984) və V (2008), Gürcüstan aşıqlarının II (2002) və III (2012) qurultaylarının nümayəndəsi olub.

Aşıq Aslan Kosalı 2014-cü il dekabrın 4-də doğma kəndində dünyasını dəyişib.

## Kitabını

Röyada oxutdu məni üç ərən
Təbarakı təalanın sirr kitabını.
Uç varağı tamamladım başatan,
Qeybdən vəhy olan pir kitabını.

Birindən öyrəndim la iləhə illallah,
Birindən də Mühəmməd Rəsululallah.
Birindən Əsmail-hüsnə və Allah,
Gözlərə gətirən nur kitabını.

Söyməsin Aslanı öznü öyənlər,
Bu dünyanın şöhrətinə uyanlar.
Beş kitabdan, on kitabdan deyənlər,
Oxu Ələsgərin bir kitabını.

## Apardığın nə oldu?

Gündüz günəş, gecə ayın şöyləsi,
Nələr deyir üsdümüzdə burc Əsəd.
Gətir səlavatı, göndər səlamı,
Məhəmməddi yerə, göyə, burca sədd.

Nəhənglər yaratdı Kərəmin kanı,
Rüstəm-zalı İsgəndəri, Mərvanı,
Köçdülər qaldılar dillər dastanı,
Əli saldı bu dünyaya bircə səd.

Ay Aslan Kosalı, baharın soldu,
Gedən çox, dönən yox, bu necə yoldu.
Bu dünyadan apardığın nə oldu?
Bir əməldi, bir kəfəndi, bir cəsəd.

## Sadiq oldum...

Sadiq oldum ilahimin yoluna,
Peyğəmbərə səlavatım müdəmdi.

İnan mənə zaman gələr, gec olar,
Bir olana ibadətim bu dəmdi.

Bu dünyada əbədilik məkan var,
Göz qapanıb dil tutulan zaman var.
Hesabı yox məzarlarda yatan var,
Onu görüb sel axıdan didəmdi.

Aşıq Aslan, unudan var mizanı,
Təkəbbürlük edib cadu yazanı.
Xaliq qoyan yol ərkanı azanı,
Axirəti sitəmdi ki, sitəmdi.

## Mömin kimi...

Mömin kimi danış görüm
Günahlardan azadmısan.
Dinə böhtanlar uydurub,
Mətləbi çox uzatmısan.

İmamlardan deyə-deyə,
Beynləri yeyə-yeyə,
O nə sözdü sünnü-şiyə,
Ortalığa söz atmısan?

Ya Əlidi, ya Məhəmməd,
Bir kökdü, bir dindi əlbət,
Bəsdi böhtan, yetər qələt,
Aralığı çox qatmısan.

Aşıq Aslan müsəlmandı,
Bir az da dindən qanandı.
Mən inandığım Qurandı,
Sən onu kənar atmısan.

## Gəl

Evliyalar, ənbiyalar sahibi,
Səsləyirəm səni hərdən indi gəl.
İki qurban deyilənin xətrinə,
Məni kəsmə etibardan indi gəl.

Qəm əridib cismi-candan olmuşam,
Ulusdan ayrılıb, sandan olmuşam.
Gen günümdə müdam Sənnən olmuşam,
Dar günümdü, ey Yaradan, indi gəl.

Quran. Tövrat, Zəbur, İncil eşqinə,
Bir Allah xətrinə, Rəsul eşqinə,
Aslan kimi mötəbər qul eşqinə,
Çağırıram, ya la-məkan, indi gəl.

## Əlhəmdülillah

Mömünlərin təsbehində,
Adətdi əlhəmdülillah.
Şükürlə dilindən qoymaz,
Vəhdətdi əlhəmdülillah.

Fələyin qılıncı iti,
Verdiyi fərmanı qəti.

İnsanların aqibəti,
Qətidi, əlhəmdülillah.

Damənini tut Allahın,
Səfahati böyük Şahın.
Aslan, əfv olsa günahın,
Hörmətdı əlhəmdülillah.

## Qurban olum

Ay bizi yoxdan var edən,
Aləminə qurban olum.
Bismillahla başladığım,
Kəlamına qurban olum.

Minbərdən gələndə əzan,
Yola gəlsin yolun azan.
Ruzi verən, qismət yazan,
Qələminə qurban olum.

Allahın adıyla keçən,
Uzaqdan-uzağa uçan.
Sülh məramlı könül açan,
Səlamına qurban olum.

Pünhana çəkib özünü,
Alnıma yazıb yazını.
Göstər Aslana üzünü,
Camalına qurban olum.

## Qılar

İki sevən bir-biriylə qovuşsa,
Onların nigahın ərənlər qılar.
Allahımın fərz etdiyi namazı,
Atadan, anadan görənlər qılar.

Qərq olan var, vara həm də bolluğa,
Dözən var aclığa, həm yoxsulluğa,
Yetimə, yesirə, çocuq-çoluğa,
Sidq ilə qolların gərənlər qılar.

Allah yaratdı bəşəri ibadət üçün,
Varlığa var verib səxavət üçün,
Zəlilə gücsüzə kəramət üçün,
Sınqın könülləri hörənlər qılar.

Aslan da səsləyir uca sərvəri,
Çox xoşbəxt yaşasın düz əməlləri,
Cənnət bağçasında bitən gülləri,
Allahın adı ilə dərənlər qılar.



# MƏHƏMMƏD SADAXLI

Məhəmməd Tanrıverdi oğlu Məmmədov 1930-cu ildə Borçalının Sadaxlı elindəki Mollaoğlu kəndində anadan olub.

“Borçalı bülbülü” Xındı Məmmədddən dərs alıb, ona çıraq olub. 80-ə yaxın saz havasını mükəmməl çalıb. Bir neçə dastanın müəllifidir. “Fərman-Nəriman”, “Çoban Rəhim”, “Lom İsmayıl”, “Mehralı bəy” və s. onun yaradıcılığının məhsuludur. Bir neçə şeirlər kitabı işıq üzü görüb.

Gürcüstan prezidentinin sərəncamı ilə “Şərəf” ordeninə layiq görülüb. Azərbaycan aşıqlarının IV və V, Gürcüstan aşıqlarının II və III qurultaylarında nümayəndə olub.

Aşıq Məhəmməd Sadaxlı 2016-cı il martın 25-də vəfat edib.

## Eylər allah

Uğura varanda sidq ilə çağır,
Çınqıllı dağlardan yol eylər Allah.
Sadiq ol sidqini haqqa bağla sən,
Mərdin ruzusunu bol eylər Allah.

Yoxsula haqq verməz atalar demiş,
Yayda keçər rüzgarı boran, qış,
Kasıbın xırmanına yağdırar yağış,
Varlının xırmanına yel eylər Allah.

Sadaxlı Məhəmməd çək azarını,
Bir yada sal cəhənnəmin narını,
Gah körərsən əldən alır varını,
Gahdandaki gəlhagəl eylər Allah.

## Yalvarıram

Gecə, gündüz əl götürüb Xudaya yalvarıram,
O Turda Musaya gələn sədaya yalvarıram,
Əssalatı, əssalamı ya Rəsulıllallah sənə,
Cəbrayılın gətirdiyi nidaya yalvarıram.

Zikr edirəm hər zamanı, haqqı salıram yada,
Bir qonağam, yaşayıram mən də fani dünyada,
Din islamın zaminkarı, Özü yetişsin dada,
Canımı verməyə Ona fədaya yalvarıram.

Sən Sadaxlı Məhəmmədi, ya Rəbb, salma nəzərdən,
Mən də bir kəmtar qulunam, salginən yada hərdən,
Cəbrayılın Məhəmmədə gətirdiyi xəbərdən,
Dərk eləyib qədir bilən, ataya yalvarıram.

## Kiməm

Ey Yaradan, dərd veribsən dərman Səndə mən kiməm,
Dərdlərin dərmanısan, xəlq edəndə, mən kiməm.
Sən yaratdın mən yarandım, ver qismətim dolanım,
Yaranmışın rizasın ver, Xudavəndə, mən kiməm!

Xəlq eylədin bu dünyanı həm şirindir, həm acı,
Kimiyə zəhər yetirtdin, kimiyə verdin tacı.

Namərd qalxa tərəqqiyə mərdin olmaz əlacı,
Sənə inanmayan olar, bil, şərməndə, mən kiməm!

Sadaxlı Məhəmməd çağır, gəlsin mərdin pənahı,
Şahimərdan, on iki imam, bir də o qibləgahı.
Dinim Məhəmməd dinidir, haq bilirəm Allahı,
O kimsələr olub haqqa əziz bəndə, mən kiməm!

## Heç

Qadir Allah, möhtac etmə sən mərdi naməndə heç,
Tək özün ver qismətini, salma çətin dərdə heç.
Neçə-neçə Süleymanın taxtı, qaldı viranə,
Kim cənginə düşən zaman geri gəlmir bir də heç.

Ey əzizlər, etibarlı görmədim bu dünyanı,
Axırında zay eyləyir mənəm deyən insanı.
Gecə-gündüz əzbər edib darda çağıran səni,
İşi ahı-zara düşüb gör alarmı dərd heç.

Sadaxlı Aşıq Məhəmməd, istə haqdan payını,
Unutmaynan sən dostunu, saxla haqqı-sayını.
Dar günündə çağır dada Əli, İmam Hüseyni,
O Məhəmməd Mustafanı çağıran qalmaz darda heç.

## Görmədim

Fələk, səndə dövran sürüb başa varan görmədim,
Cəfanı çox çəkən gördüm, səfa sürən görmədim.
Hər kəsə ki, şərbət verdin tezcə zəhər eylədin,
Şad oluban başa kimi xoş gün görən görmədim.

Neçə-neçə şahənşahlar yurdunu düz eylədin,
Firon allahlıq eylədi, dərdini yüz eylədin.
Hanı hökm edən Süleyman, dillərdə söz eylədin,
Onlardan bircə nişanə indi duran görmədim.

İskəndər də hökm eylədi gedib zülməti görsün,
İçsin dirilik suyunu dünyaca o da dursun.
Qismət oldu Xızıra, dar gündə halım sorsun,
Bir Xudadan başqa daha halı soran görmədim.

Hanı Məhəmməd peyğəmbər, dinləri aşkar etdi,
Bir sədd qoydu bu cahana, özü dünyadan getdi.
Hanı onun Şiraslanı hər zaman kömək etdi,
Kafirlərə onun kimi qılınc vuran görmədim.

Əzanı aşkar eylədi Ömər verdi hökmünü,
Nazil oldu Haqq Quranı dinim söyləyir bunu.
Sadaxlı Aşıq Məhəmməd, istə haqdan xoş günü,
Qismət olsun axirətə bircə quran görmədim.

## Məni

Aləmin təbibi ey şahi çahan,
Sən yetiş dadıma ay ağa, mənim.
Əzizinəm, ay ağa,
Yetiş dada, ay ağa,
Sən özünsən dərd verən,
Dərman da ver, ay ağa.
Kecə-gündüz sənsən dilim əzbəri,
Salma nəzərindən, ay ağa, məni.

Qəmli könül çəksə qarı-boranı,
Zikr edibən oxuyaram surəni,
Oxuyaram surəni
Çağıraram dada yetsin
O qiblədə duranı
Qadir Allah qismət eylə Quranı,
Qəssəl bükən zaman, ay ağa, məni.

Sadaxlı Məhəmməd, çəkmə amanı,
Fələk dərdə düçar etsin yamanı.
Gəl aşıq amanı,
Çəkmə ahı, amanı,
Çərxi-fələk bəd gətirir,
İldən ilə zamanı.
Əlif qəddim büküb etsən kamanı,
El gözündən salma, ay ağa, məni.



# AŞİQ ARİF

Arif Dünyamalı oğlu Xəlilov 1931-ci ildə Kaxetinin Laqodexi bölgəsindəki Qaracalar kəndində tanınmış sənətkar ailəsində anadan olmuşdur. Atası Dünyamalı dövrünün ünlü aşıqlarından idi. Əslən onların ailəsi Sərtcala-Muğanlı kəndindən köçüb oraya getmişlər. 1950-ci ildə Arifgilin ailəsi yenidən Muğanlıya qayıdır və o, ömrünün axırına qədər burada yaşayıb yaratmışdır.

Gəncliyində Arif bir müddət Şəmkirli Aşıq Oruca da qulluq etmişdir. Aşıq Arif Qaraçöplü Musadan da sənətin sirlərini öyrənmişdir. O, sənəti bir çox gənc sənətkarlara da öyrədərək onlara ustadlıq etmişdir.

Aşıq Arifin şeirlər kitabı bu yaxınlarda Almata şəhərində işıq üzü görmüşdür.

Aşıq Arif 2011-ci ildə dünyasını dəyişmişdir.

## Üstə

***(Əyrəmli Sabirə)***

Kəlmə-kəlmə gəldi ol Məhəmmədə,
Quranda yazıldı bir kitab üstə.
Alimlər oxuyub dərsini bilir,
Yerlə göy dolanır bir kürə üstə.

İki sərraf bu dünyanı dolanır,
Hansı xəstə olur, hansı dolanır?

Gecə-gündüz gərdiş vurub dolanır,
Ay da bir yol gəlir bir Ayın üstə.

Atəş vurub bu sinəmi qalarsan,
Bu namusda, bu qeyrətdə qalarsan.
Keçəndə əlinə çaş-baş qalarsan,
O keçirdiyin hay-harayın üstə.

Arifəm, məclisə qananlar gəlsin,
Öyrənsin, dərs alsın, qananlar gəlsin.
Gəlsə məclisimə qananlar gəlsin,
Getmərəm qanmazın, hər ayın üstə.

## Usta

Dost yolunda mən tökərəm qanımı,
Nə istəsən qulluğunda var, usta!
Əl qaldırıb biz də qulluq eylədik,
Dedim: - Xudam olsun sizə yar, usta!

Günün hərarəti dağı yandırır,
Bostan uralanır, tağı yandırır.
Bağban naşı olsa, bağı yandırır,
Dərə bilməz alma, heyva, nar, usta!

Dursa da üzünə axmaq gədələr,
Səbr eylə, darıxma, - deyib dədələr.
Ümidvaram sizi azad edələr,
Bir də yağmaz yağış, dolu, qar, usta!

Tikə dostu bilər uzaqdan baxmaq...
Bir gün onlara da dəyəcək toxmaq.
Mərddən mərd törəyər, gədədən axmaq,
Yaxşını-yamanı  seçməz kor, usta!

Arıfəm, görürəm böhtan içində,
Ağarar saçların şeytan içində.
Şir kimi nərə çək meydan içində,
Namərdin boynunu belə vur, usta!

## Oğul

*(Həyatdan vaxtsız köçən oğlu Loğmana həsr olunur)*

Dünyaya gələndə bəxtsiz yarandın,
Keçdi ağrılarla illərin, oğul!
Fələk səni tərki vətən eylədi,
Üzüldü bizlərdən əllərin, oğul!

Dinə xidmət etdin qərib bir eldə,
Ağladın Hüseyni, aləmin əldə.
Zikr etdin ağanı ürəkdə, dildə,
Bəs niyə tutuldu dillərin, oğul!

Atan-anan "Loğman" deyib ağlayar,
Beş bacın da sinəsini dağlayar.
Qardaşınla məzarını yoxlayar,
Sənsiz qalan bir cüt güllərin, oğul!

Yaxınlar-uzaqlar batdılar qəmə,
Çox zəhmət çəkdilər sən bəxtikəmə.
Arifəm, yas endi sazımda simə,
Qaynayır gözümdə sellərin, oğul!

## Sənin

Babalar payısan, a Molla Nəsib,
Atalar sözüdür sualın sənin.
114 surədir "Qurani-Kərim",
Onları dərk edir kamalın sənin.

Şirin zəbanlısan, istiqanlısan,
Sadə ürəklisən, mehribanlısan,

Elmdə dəryasan, pür kamallısan,
Əzbərdir sinəndə "Quran"ın sənin.

Kimdə olsa səxavətlə ibadət,
O, cənnət məkandır, buyurur ayət.
Üzün salavatdır, qəlbin ziyarət,
Aydan ziya alır camalın sənin.

Məscidi minbərdə durur duaya,
Sübhan səsi qalxır ərşi-əlaya,
Gündə beş vaxt yön çevirdi Kəbəyə,
Çatır ərənlərə salamın sənin.

Arifin qəlbində ləldir qiymətin,
Eşidin ariflər, bildi qiymətin,
Altuna bərabər eldir qiymətin,
Var olsun Muğanlı mahalın sənin.



# AŞIQ HƏSRƏT

Həsrət Qərib oğlu İskəndərov 1931-ci ildə Borçalının Kürdlər kəndində anadan olub.

Körpəliyindən saza-sözə vurğun olan Həsrəti ailəsi qonşu Qaşmuğanlı kəndində yaşayan ünlü ozan Xındı Məmmədin yanına şagird qoyublar.

Aşıq Həsrət ustadı həyatdan köçənə qədər ona qulluq edib. Eldə-obada adlı-sanlı bir aşıq kimi tanınıb.

Aşıq Həsrət 15 dekabr 2008-ci ildə dünyasını dəyişmişdir.

## Gedibdi

Həyatı dərk eylə, ay insan oğlu,
Bu dünyanın Süleymanı gedibdi.
Əzraillə çilik-toxmaq oynayıb,
Pəncələşib pəhləvanı, gedibdi.

Firdovsi, Füzuli hanı söylənir,
Hatəmin süfrəsi, nanı söylənir.
Ədalətli Nüşravanı söylənir,
Ərəstünü, həm Loğmanı gedibdi.

Elə ki, atlanıb görünən zaman,
Heybətindən lərzə gələrmiş cahan.

Min bir möcüzəli misilsiz insan,
Zülfüqarlı Şahmərdanı gedibdi.

Bu dünyanın gör nələri var imiş,
Ziyarət məscidi, piri var imiş.
Aşıq Abbas, Gülgəz Pəri var imiş,
Yazıb qoyub bir dastanı gedibdi.



# AŞIQ KAMANDAR

Kamandar Həmid oğlu Əfəndiyev 1932-ci ildə Borçalının Kürüstü Kəpənəkçi kəndində anadan olmuşdur. Kosalı natamam orta məktəbini bitirib, traktorçu kimi əmək fəaliyytinə başlamışdır.

Aşıqlıq sənətinə həvəsi onu tanınmış ustad aşıq Sadıq Sultanovun yanına gətirib. 1961-ci və 1984-cü illərdə Azərbaycan aşıqlarının III və IV qurultaylarında iştirak edib.

65 illik yubileyi münasibətilə “Şərəf” ordeninə layiq görülüb. 2013-cü ildə ev muzeyinin qarşısında büstü açılıb.

Bir neçə aşığa ustadlıq edərək sənətin sirlərini öyrədib. Bakıda “Borçalı laylası”, “Bənövşə”, “Mən ellər aşığı xan Kamandaram” adlı kitabları işıq üzü görüb.

80 illik yubileyi ilə əlaqədar onun haqqında “Xan Kamandar” adlı kitab çap olunub.

Aşıq Kamandar 2000-ci il oktyabrın 26-da vəfat edib.

## Mədəd

Yerə-göyə təməl quran,
Ya rəbbim, sənnən mədəd!
Aləmlərə naxış vuran,
Ya Rəbbim, sənnən mədəd!
Həqiqətə dayax duran,
Ya Rəbbim, sənnən mədəd!

Boş dünyaya ziynət verib,
Cah-cəlala yetirən,
Canlılara nəfəs verən.
Ya Rəbbim, sənnən mədəd!

Cənnətə bənzər yaratdın,
Səfalı yaylaxları,
Bağ bostanlı gülüstanlı,
Min cürə oylaxları.
Gül-çiçəyə qərq eylədin,
Yolları, yaylaxları.
İnsanlara bəxş elədin,
Lilparlı bulaxları.
İndi tamam qaldı veran,
Ya Rəbbim sənnən mədəd.

Dünya bir mehmanxanadı,
Xan gələr, sultan geder.
Qənimlərə, zalımlara,
Xon Üsdünnən xon geder.
İsti yaylar təşnə verir,
Canımızdan can gedər.
Gündə neçə qan tökülür,
Həyatdan cavan gedər.
Bu bəlaya eylə çara,
Ya Rəbbim sənnən mədəd.

Dünyanın bazarı xoşdu,
Alan dəstə-dəstədi.
İşliyir iman tərəzi,

Satanlar həvəsdədi.
Ağır alır, yüngül çəkir,
Bunlar hansı kəsdədi.
Tamahdan gözlər tutulub,
İnsan kəsha-kəsdədi.
Nə sədaqət, nə səxavət,
Hamı ruhu xəsdədi.
Hilalımız oldu haram,
Ya Rəbbim sənnən mədəd.

Padşahlar cəhd eliyir,
Tutmur işin sövdası.
Vəhşilər meydan oxuyur,
Əllərində mey tası.
Ah naləyə çulğalanıb,
Könüllərin aynası.
Qan içində çalxalanır,
Müsəlmanlar dünyası.
Ay Kamandar, bu gün gələ,
Mürtəzanın nərəsi.
Qoymuya bizi nigaran,
Ya Rəbbim sənnən mədəd.

## Gözəl

Əzəli Allah yaradıb,
Beyi-binadan gözəl.
Salavatın sahibidi,
Nur üzü nurdan gözəl.
Kəlmə-kəlmə ayə endi,

Bax Rəsulun şaynına.
Tər İslamın tərbiyəsi,
Otuz cüz Quran gözəl.

Oxuduqca nur çiləyir,
Ayələrin danəsi.
Hesabatda dörd altıdı,
Yüz on dördün xanəsi.
Böylə bir elmi dəryanın,
Nurdandı pərşanəsi.
Onu münəvvər yaradıb,
Böyük Yaradan, gözəl.

Ay Kamandar, tər İslamın,
Tər dünyası kimdə var.
Tur Sinanın möcüzatı,
Öz hikməti kimdə var.
Mehrac evinin səfəri,
Şah mirzəsi kimdə var.
Övliyalar, ənbiyalar,
Qadir- Sübhan gözəl.

**"ALLAHU-ƏKBƏR"**

İslam dünyasına bayram gələndə,
O günə şad olur göydə mələklər.
Ayaq atıb öz-özünü biləndə,
Allah, Allah olur dilində əzbər.

Mən də bu qayətdə belə yol açdım,
Haramnan, naqisdən üz tutub qaçdım.
Bəzən də şeytanın şərinə düşdüm,
Köməyimə gəldi sahibən təhər.

Bir zülmət aləmin aşdım yalınnan,
Dərs aldım ağamın gül camalınnan.
Xəbərim olmadı dünya malınnan.
Car oldu dilimdə "Allahu Əkbər".

Şəhadət barmağın şahadatınnan,
Asıldım göylərin yeddi qatınnan.
Nurlandım Peyğəmbər salavatınnan,
Car oldu dilimdə "Allahu Əkbər".

Kamandarın haqdan verildi suru,
Çalxandım, silkindim oldum dupduru.
Könlümün işığı, qəlbimin nuru,
"Allahu-Əkbər", "Allahu Əkbər".

**YA SEYİD ABBAS**

Möcüzatın möminlərə bəllidi,
Hər sirrin hikmətdi, ya Seyid Abbas!
İsminlə hər dilək, bir təsəllidi,
Hər arzu ziynətdi, ya Seyid Abbas!

Nəfəsiylə təhlükələr qovduran,
Sığal çəkib buludları ovduran,
Yayın təşnəsində, leysan yağdıran,
Novbahar qüdrətdi, ya Seyid Abbas!

Çovğunlu, boranlı zülmət bir gecə,
Beşiyinnən körpə qeyb oldu necə?
Səhər açılanda güldün sadəcə,
Seyid kəramətdi, ya Seyid Abbas!

Haqq Seyidsən, Ağa, haqdı ustadın,
Səsləyənə bır dayaxdı ustadın.
Nicat verdi, sənə baxdı ustadın,
Müqəddəs qismətdi, ya Seyid Abbas!

Qeyzi qəzəbindən bəd əsər yellər,
Hökmünə baş əyir obalar-ellər.
Qurusun, dəhanda şəkk edən dillər,
Qəbrin ziyarətdi, ya Seyid Abbas!

Kümbəzin pir ocağıdı yurdunda,
Seyid Yəhya nur dağıdı yurdunda.
Ərənnərin rövnağıdı yurdunda,
Ovliya şöhrətdi, ya Seyid Abbas!

Cəddinə can deyir aşıq Kamandar,
Cümlə bəlalardan eyləsin kənar.
Sənət meydanında mənəm bəxtiyar,
Verdiyin nüsrətdı, ya Seyid Abbas!

## Çağır

Tərəqqi, tənəzzül, bəxtə bağlıdı,
Harayla! Dilində ərəni çağır.
Aşıq ərəni çağır,
Səslə ərəni çağır.

Möminlərin dayağı,
Könül hörəni çağır!
Sidqiylə çağıran namurad qalmaz,
Ərşin pərdəsini, sərəni çağır!

Cismidə can birdi, meydan min birdi,
Hökmüdə xan birdi, fərman min birdi.
Aşıq deyər minbirdi,
İsmi Sübhan minbirdi.
Əsirlərlə çarpışan,
Çarxı dövran minbirdi!
Min dərd varsa ona dərman minbirdi,
O, min dərdə dərman, verəni çağır!

Ceyhunun sözlərin yadigar eylə,
Haqqın dərgahına düz ilqar eylə.
Aşıq, düz ilqar eylə,
Dosta düz ilqar eylə.
Namərdə ağız açma,
Mərdə yüz ilqar eylə!
Oxu, bismillahı dildə car eylə!
Meracda Rəsulu görəni çağır!

## Ya Məhəmməd Mustafa

"Məhəmməd peyğəmbərin" şəninə
Bir könüldən min könülə,
Məclisi şad eylərəm.
Pərişan könülləri,
Qəmnən azad eylərəm.
Ləblərimə şəbnəm qonar,

İsmini yad eylərəm.
Yüz min əhsən mərhaba.
İslamların pənahısan,
Ya Məhəmməd Mustafa.

Nəfəsinnən gül qoxuyur,
Ərəbistan çölləri.
Cavahir tək şöləlәnir,
Mədinənin elləri.
Hər yana ətir paylıyır,
Məkkənin saf yelləri.
Camalından nur çilənir,
Kəbeyi Beytullaha.
İslamların dayağısan,
Ya Məhəmməd Mustafa.

Mübarək ziyarətinə,
Saysız insanlar gəlir,
Padişahlar, xan, sultannar,
Hökmü dıvannar gəlir.
Allahu əkbər dillərdə,
Yerdən göyə yüksəlir.
Əhli momin bəndələrin,
Dua edir dərgaha.
İslamların pənahısan,
Mərhaba olsun şəninə,
Ya Məhəmməd Mustafa.

Yerdə insan, göydə qılman,
Səcdə qılır, ey şahım!
Quranınnan küllü cahan,
İlham alır, ey şahım!
İsrafil sur edər bəyan,
O gün olur, ey şahım!
Oyanar cümlə hümmətin,
Sənnən isdəllər şəfa.
İslamların pənahısan,
Ya Məhəmməd Mustafa.

Beş pənci ali əbadı,
Gələcək Baharımız.
Allah özü rəhm eləsin,
Çoxdu günahlarımız.
Haqq divanı qurulanda,
Sənsən xilaskarımız.
Haqqın əziz rəsulusan,
Axır zaman daha.
İslamların pənahısan,
Kamandara ver şəfa,
Allahümmə səlli əla,
Ya Məhəmməd Mustafa.



# DƏLLƏR ƏLİ

Əli Astan oğlu Adıgözəlov 1934-cü ildə Borçalının Dəllər (Bolnisi rayonunun Muşevan kəndi) kəndində anadan olub. Sənətdə ilk dərsini qonşu Qaratikan kəndində yaşayan Aşıq Novruzdan alıb. Aşıq Əli bədii yaradıcılıqla da məşğul olub. Bu sənəti gənclərə də öyrədib. Oğlu Aşıq Bafəli tanınmış sənətkarlardandır.

Aşıq Dəllər Əli 1985-ci ildə vəfat edib.

## Ya Əli

Sığınmışam övliyalar sərinə,
Sənsən bu dərdimə loğman, ya Əli.
On iki imama, mərdlər pirinə,
Sənsən bu dərdimə loğman, ya Əli.

Cəbrailə sən ustalıq eylədin,
Ustadlara bərəkallah eylədin.
Qənbərə qaç deyib səda eylədin,
Sənsən bu dərdimə loğman, ya Əli.

And verirəm ağam Abbas adına,
Sən Hüseyni göndər, çatsın dadıma.
Əli Əkbər, ol Qasimin adına,
Sənsən bu dərdimə loğman, ya Əli.

## Fələk

Nə durmusan mənnən ayaq-ayağa,
Uydurdun canımı azara, fələk.
Sevdim, seçdim, qismət etdi əğyara,
İnanmam səndəki ilqara, fələk.

Sevənlərin cümlə aldı muradın,
Rəhimliyə nədən yoxdu imdadın.
Tutduğunu əldən qoyma, sən adın,
Qoy düşgün sailtək yollara, fələk.

Haxdan meylim üzməm, kəsməm gümanım,
Məhəmməd, Əliyə var iltimasım.
Həsənə, Hüseynə qurbandı canım,
Əliyə bağışla onları, fələk.

## İstərəm

Yusifə, Yunisə nicat verənlər,
Ağa qardaşıma nicat istərəm.
Ənbiyalar, övliyalar, ərənlər,
Ağa qardaşıma nicat istərəm.

Salsala xişminnən Zülfüqar çəkən,
Qul deyib özünü bərbərdə satan,
O bədənsiz başa ay nicat verən,
Ağa qardaşıma nicat istərəm.

Dəllər Əli Sidqin bağlayır sənə,
Yoxdu sizdən başqa zati kimsənə,

Mən dəxil düşmüşəm Şahi Hüseynə,
Ağa qardaşıma nicat istərəm.

## Budu

Adəm ata yaranandan baş əymədi Adəmə,
Haqq qoyladı dərgahından, ziddi çıxdı xaliqə,
O zamandan əmr olundu, qismət oldu lənətə,
Mələklər aşkar eylədi, dedilər: şeytan budu.

Mömin olan çıxartmasın zikirindən lənəti,
Çünki Xudam ərz eyləyib, odu payı, qisməti.
Mən deyərəm qınamayın, qatır cümlə milləti,
Bir-birindən mane görür, aralıq qatan budu.

Həm yatanda, oyananda dildən qoyma Allahı,
Dinim Məhəmməd dinidi, dana bilməm billahı.
Gəl biçarə Dəllər Əli, çağır sən Yadullahı,
Qeyri loğman tapammassan, bilginən, loğman budu.



# AŞIQ MƏSİM SADAXLI

Məsim İsmayıl oğlu Şəmilov 10 oktyabr 1940-cı ildə Borçalının Sadaxlı kəndində anadan olmuşdur. Onun bu sənətə başlamasında böyük qardaşı Aşıq Dursunun əvəzsiz rolu olub.

Məsim İsmayıl oğlu uzun illər ünlü ozan Dədə Əmraha qulluq edib. Aşıq Məsim sənəti gənc nəslə böyük həvəslə öyrədir. Şeirləri Bakı şəhərində kitab şəklində işıq üzü görüb.

Aşıq Məsimin 70 illik yubileyi qeyd olunub.

## Allahu Əkbər

Allahımız haqdır, dinimiz İslam,
Bır həqiqət olub Allahu Əkbər.
İslam olana qiblədir həqiqət,
Yönümüz qibləyə Allahu Əkbər.

O imam oğlundan birinin adı olan,
Haqqın da cərgəsində sanı olan.
Əli Əsgər, Əli Əkbər adı olan,
Haqqın kəlamıdır Allahu Əkbər.

Allahın xoş bəndəsi İmam Hüseyin,
Peyğəmbərin nəfəsidir ər göyün.
Kafirlərə çəkdilər dağı, düyün,
Hüseyin demişdir Allahu Əkbər.

Ay Məsim, göydə mələk, yerdə bəşər,
Xəlq olubdur insi cinni hər nə var.
Göyə ucalıbdır göylərdən betər,
Ən uca kəlamdır, Allahu Əkbər.

## Bol eylə Allah

Haxdan dilə həmişə qismətini,
Yox yerdən ruzqunu bol eylər Allah.
Əgər yolun düşsə kufu ormana,
Sarın qayalardan yol eylər Allah.

Çağırmaq gərək sıtqiylə ay ağa,
Gah baş olan, gah da düşər ay ağa,
İstər nökər ol, istərsə sən ağa,
Nəzər qılsa gəlha-gəl eylər Allah.

Bu gen dünyaki var deyib gülərsən,
Talehin dönsə bəd güzarı görərsən,
Bir gün yaranıbsan bir gün köçərsən,
Bu ötən dilini lal eylər Allah.

Uğura varsan xanədən hər səhər,
Çağır yaradanı eyləmə təhər,
Əgər sən alsan dəhanına zəhər,
Onun da tamını bal eylər Allah.

Aşıq Məsim düşmə ayrı elinnən,
Ol haqqı unudub salma dilinnən,
Xəyal eyləyib dönsən öz yolunnan,
Yəqin bilki qeyli-qal eylər Allah.



# AŞIQ ZİYƏDDİN

Ziyəddin Məhəmməd oğlu Əliyev 1950-ci ildə Marneuli rayonunun Keşəli kəndində anadan olub.

Aşıq Ziyəddin Borçalının ünlü ozanı Xındı Məmmədə qulluq edib. Ustadı vəfat etdikdən sonra Borçalının ünlü sənətkarlarından bəhrələnib, onlarla bərabər məclislər keçirib.

Aşıq Ziyəddin bir çox gənc aşığa sənətin sirlərini öyrədir. Aşıq şeirinin bütün növlərində qələmə aldığı əsərləri Bakıda nəşr olunub. Üç kitabın müəllifidir. 2005-ci ildə "Şərəf" medalına layiq görülüb.

## Ya Əli

Atı Düldül, qulu Qənbər,
Şahı-mərdan ya Əli.
Növrağınla ziyalandı,
Cümlə-cahan, ya Əli.
Küllü aləm qərar tutdu,
Rəsulullah eşqinə.
Bari ilahım hökm eylədi,
Verdi fərman, ya Əli.

Cəbrayılın ustadısan,
Möcüzatın bəllidi.
Haqqın şiri, aslanısan,
Əsli-zatın bəllidi.
Din islama inamlısan,
Etiqadın bəllidi.
Kafirlərə qılınc çaldın,
Açdın meydan, ya Əli.

Aşıq Ziyəddinəm, Ağa!

Sənsən dilimin əzbəri.
Öz canından əziz sevdin,
Həzrəti peyğəmbəri.
İlahi sur verdi sənə,
Fəth eylədin Xeybəri.
Sənə sur verən Allaha,
Olum qurban, ya Əli.

## Eşqinə

Küllü-aləm zikr eyləyir,
Sübhan Allah eşqinə.
İki demə, bir Allaha,
Qülhüvallah eşqinə.
Uyma iblis əməlinə,
Çıxma haqqın yolundan.
Duz-çörəyin halal qazan,
Bissimillahın eşqinə.

Arif olan, dinlə məni,
Sənə nələrdən deyim.
Ulduzlardan, kəhkəşandan,
Yeddi qat göydən deyim.
Barillahım nəzər qıldı,
Bircə zərrədən deyim.
Yaratdı cümlə-cahanı,
Həbibullah eşqinə.

Qüdrətindən xəlq olundu,
Canlı, cansız hər nə var.
Dağa-daşa zinət vurdu,
Dünya oldu bərqərar.
Aşıq Ziyəddinə özü,
Pənahdı pərvərdigar.
Bağışlanar günahlarım,
Rəsulullah eşqinə.



# FƏRHAD ƏZİZ

Fərhad Əziz oğlu Əbülhəsənov 1955-ci ildə Marneuli rayonunun Axıllələ kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıda mədəni-maarif texnikumunda təhsil alıb.

Dayısı şair-aşıq Qulamhüseyn Borçalıdan sənət dərsi alan Fərhad bir aşıq kimi tanınıb, ad-san çıxarıb.

“Sözlü dünyam” (2006), “Saz ruhumdu” (2008), “Əlim haqqın ətəyində” (2010) şeir kitabları Bakıda nəşr olunub.

Türkiyədə keçirilən mədəni tədbirlərdə bir Borçalı aşığı kimi həmişə mükafatlara layiq görülüb.

## Şükürlər olsun

Ziyarət etməyə qismətim varmış,
Böyük Yaradana şükürlər olsun.
Cəmi səbəbkeşə deyirəm alqış,
Böyük Yaradana şükürlər olsun.

Gəzdim Ərdəbili, Təbrizi, Qumu,
Elə bil dünyadan aldım arzumu.
Bu ad sevindirər oğlum-qızımı,
Böyük Yaradana şükürlər olsun.

Tehrana, Məşədə yethayetdəyik,
Görəm ki, çatmışıq ziyarətdəyik.
Qayıdaq vətənə etsinlər təbrik,
Böyük Yaradana şükürlər olsun.

Arzu eyləyirəm hər müsəlmana,
Ürəknən yanaşsın dinə-Qurana.
Dünən qonaq oldum “Mehdi-ƏI-Zaman”a
Böyük Yaradana şükürlər olsun.

Fərhad, səbirli ol, dövr edir, zaman,
Kanı tərk eylədi Sultan-Süleyman.
Dünyamız firavan, şirin olsun nan,
Böyük Yaradana şükürlər olsun.

## Allaha şükür

Fərhad, şükür eylə haqqı-talaya,
Əl, ayaq, dil, ağıl, göz verib Allah.
Bax gecə-gündüzə, günəşə-aya,
Xəlq edib nələri, düz verib Allah.

Dünya günəş ola, sayıla böyük,
Qurandan məlumat öyrənə öylük.
Bir sağlıq varsa da naşükür deylik,
Bacarana ömrü yüz verib Allah.

Nola insanlarda ola etibar,
Atalı-analı gülə balalar.
Könlümü oxşayır yay ilə bahar,
Bir oğul, üç gözəl qız verib Allah.

Əziz oğul, çalış ki, olsun səbrin,
Pozulmasın zehnin, itməsin sərin.
Qismətində varsa gələcək yerin,
Şairlik, aşıqlıq, saz verib Allah.

## Şəfa ver Allah

Dərdimi bilməyir nə təbib-loğman,
Nə olar Sən mənə şəfa ver Allah.
İstəklərim Sənə əyandı-əyan,
Dualar edirəm hər axşam-sabah...
Nə olar Sən mənə şəfa ver Allah.

Altı gündə xəlq eylədin dünyanı,
Yaratdın nələri, cümlə-cahanı.
Səndən başqa yoxdu yaradan, hanı?
Ümidim-ərkanım Sənədi billah,
Nə olar Sən mənə şəfa ver Allah.

Fərhadam, bağlıyam haqqıma, dinə,
Körpəmi çatdıram mən deyən günə.
Musa peyğəmbərin düşdüm fikrinə,
Səbrimnən-hövsələm tükənir vallah,
Nə olar Sən mənə şəfa ver Allah.



# AŞIQ BAFƏLİ

Bafəli Əli oğlu Adıgözəlov 1959-cu ildə Bolnisi rayonunun Dəllər (Muşevan ) kəndində sənətkar ailəsində anadan olmuşdur. Bafəli aşıq sənətinin sirlərini atası Aşıq Əlidən öyrənmişdir. O, aşıqlıqla yanaşı el-obada zurnaçı kimi də yaxşı tanışdır.

Bu gün Bafəli Adıgözəlov Borçalıda həm də mahir bir sazbənd kimi çox məşhurdur.

Aşıq Bafəli həm də aşıq şeiri üslubunda çox gözəl qoşqular yazır. O, həm aşıqlığı, hə də sazbəndliyi bir çox gəncə öyrədir.

Aşığın 60 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur.

## Bizim

Qadir Allah göstərdiyi,
Doğru yol ərkandı bizim.
Məhəmmədə haqdan gələn,
Natiqi Qurandı bizim.

Vardı cənnət cəhənnəm də,
Belə yazır şəriət də.
İbrahimin Ərəfədə,
Kəsdiyi qurbandı bizim.

On bir imam sərkərdəsi,
Gəzir dillərdə sədası.
Bafəli, gözün qarası,
Sahibi-Zamandı bizim.

# MÜNDƏRİCAT


ÖN SÖZ ƏVƏZI 3

GÜLLƏR PƏRİ 7

QUŞÇU ABBASƏLI 9

XƏSTƏ HASAN 11

AŞIQ ŞENLİK 17

DOLLU ABUZƏR 24

MİSKİN NƏBİ 27

AĞACAN 38

MƏSİM BƏYAZİDLİ 43

MUSA QARAÇÖPLÜ 45

AŞIQ SADİQ 55

XINDI MƏMMƏD 64

AŞIQ TEYMUR 72

AŞIQ ƏMRAH 80

ALXAN QARAYAZILI 82

TƏHLƏ NOVRUZ 86

HÜSEYN SARAÇLI 91

İSLAM ƏRDƏNƏR 97

AŞIQ İSGƏNDƏR AĞBABALI 100

AŞIQ MƏHƏMMƏD QASIMLI 102

ASLAN KOSALI 103

MƏHƏMMƏD SADAXLI 109

AŞİQ ARİF 114
AŞIQ HƏSRƏT 119
AŞIQ KAMANDAR 120
DƏLLƏR ƏLİ 128
AŞIQ MƏSİM SADAXLI 131
AŞIQ ZİYƏDDİN 133
FƏRHAD ƏZİZ 135
AŞIQ BAFƏLİ 138